RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 288 (9743) 28 dekabr 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# İnkişaf büdcəsi

Dövlət büdcəsi dünyanın hər bir ölkəsində əsas maliyyə aləti hesab olunur. Təsadüfi deyil ki, büdcənin gəlir və xərclərinin səviyyəsi ilk növbədə ölkənin inkişafının göstəricisi kimi nəzərdən keçirilir. Ona görə də hansısa ölkənin inkişafından danışanda ilk diqqət yetirilən məsələlərdən biri onun büdcəsi olur. Dövlət büdcəsi ilə bağlı məsələlərin müzakirəsi də hər zaman ictimaiyyət tərəfindən maraqla izlənilir.

Azərbaycanın 2025-ci il dövlət büdcəsinin, habelə büdcə zərfinə daxil olan məsələlərin noyabr ayından başlanan və dekabrda yekunlaşan müzakirələri də işgüzar atmosferdə keçdi.

Qeyd edək ki, Azərbaycanın inkişafına paralel olaraq dövlət büdcəsi də ildən-ilə böyüyüb, ötən 21 ildə gəlir və xərcləri dəfələrlə artıb. Uzun illərdir ki, Cənubi Qafqazda bütün məsələlərdə lider olan respublikamızın büdcəsi də gəlir və xərclərinə görə birincidir. Xatırladaq ki, 2003-cü ildə respublikamızda dövlət büdcəsinin gəlirləri 1 milyard 220,9 milyon manat həcmində idi. Bu gün büdcəmizin gəlirləri artıq 38 milyard manatı ötüb. Bu da 2003-cü illə müqayisədə təxminən 32 dəfə çoxdur.

Büdcənin ildən-ilə artımı isə ilk növbədə respublikamızın qarşısında dayanan prioritet vəzifələrin uğurla icra olunmasını təmin edib. Təsadüfi deyil ki, hər il dövlət büdcəsi tərtib olunarkən vacib məsələlərin maliyyələşdirilməsinə daha çox diqqət yönəldilir. Sosial və investisiya yönümlülüyə üstünlük vermək, dövlətin müdafiə qabiliyyətini daha da gücləndirmək, vətəndaşların sosial rifahını ildən-ilə yüksəltmək, iqtisadi, enerji, ərzaq və ekoloji təhlükəsizliyini möhkəmləndirmək, idxaldan asılılığı minimuma endirmək, regionların dinamik sosial-iqtisadi inkişafını təmin etmək dövlət büdcəsinin prioritet vəzifələridir.

Növbəti ilin büdcə siyasəti müəyyənləşdirilən hədəflər, Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas prioritet vəzifələr nəzərə alınmaqla hazırlanıb. Bunlar respublikamızın hərbi-müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi, "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya"sında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük qayıdışın təmin edilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması üçün əlavə sosial dəstək paketinin reallaşdırılması, dayanıqlı iqtisadi artımın dəstəklənməsi, makroiqtisadi sabitliyin və büdcə dayanıqlılığının qorunması və Naxçıvan Muxtar Respublikasının Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasıdır.

→ 15

## Prezident İlham Əliyev və Kasım-Jomart Tokayev istintaqın gedişi ilə bağlı fikir mübadiləsi aparıblar



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.

Dövlət başçıları Azərbaycan və Qazaxıstan vətəndaşlarının olduğu təyyarənin qəzaya uğraması nəticəsində insanların həlak olması ilə bağlı bir-birinə, həmçinin həlak olanların yaxınlarına başsağlıqlarını bildirib, yaralananlara tezliklə şəfa arzulayıblar.

Prezident İlham Əliyev ilk növbədə Qazaxıstan Prezidentinə xilasetmə işlərinin aparılması ilə bağlı şəxsən təşəkkürünü bildirib. Dövlətimizin başçısı bu işlərdə dərhal lazımi tədbirlər görən və yaralanan sərnişinlərin xilas olunmasında fəal iştirak edən Qazaxıstan xilasedicilərinin işini yüksək qiymətləndirib. Eyni zamanda Azərbaycan Prezidenti Qazaxıstanın tibb personalına da təşəkkürünü çatdıraraq, onların xəsarət alanlara qayğı ilə yanaşmaları və peşəkarcasına tibbi xidmət göstərmələri ilə bağlı minnətdarlığını bildirib, yaralananların böyük hissəsinin artıq Vətənə döndüyünü və hələ də orada müalicə olunan Azərbaycan vətəndaşlarının olduğunu vurğulayıb.

Dövlətimizin başçısı bununla yanaşı, Qazaxıstanın sadə vətəndaşlarının da Azərbaycanla həmrəylik göstərərək, bu işlərdə verdikləri dəstəyi bir daha dost və qardaş xalqlarımızın bir-birinə nə qədər bağlı olmasının göstəricisi kimi dəyərləndirib, bunun Azərbaycan ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirildiyini qeyd edib.

Öz növbəsində Kasım-Jomart Tokayev bildirib ki, təyyarə qəzasının araşdırılması ilə bağlı onun tapşırığı ilə dərhal xüsusi komissiya yaradılıb, "Embraer" şirkətinin nümayəndələri artıq Qazaxıstana gəliblər və araşdırma işlərində fəal iştirak edirlər.

Telefon söhbəti zamanı tərəflər istintaqın gedişi ilə bağlı fikir mübadiləsi aparıb və əmin olduqlarını bildiriblər ki, aparılan istintaqın nəticəsində qəzanın başvermə səbəbləri tam şəkildə araşdırılacaq.

***Prezidentin Mətbuat Xidməti***

## Təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının növbəti iclası keçirilib



**Dekabrın 27-də təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, komissiyanın sədri Əli Əsədov bildirdi ki, komissiya qəzanın nəticələrinin aradan qaldırılması ilə bağlı indiyədək görülmüş işləri və qarşıda duran vəzifələri nəzərdən keçirəcək.

Qəza nəticəsində xəsarət alanlara və yaralananlara zəruri yardımın göstərilməsi ilə bağlı həyata keçirilən tədbirlər və görüləcək işlər barədə məlumat verildi.

Komissiya üzvlərinin səlahiyyətləri üzrə məruzələri dinlənildi.

Komissiya üzvləri yaralıların, həmçinin həlak olanların nəşlərinin Azərbaycana gətirilməsi, həlak olanların dəfni, hazırda vəziyyəti ağır olan vətəndaşların Aktauda davam edən müalicəsinin gedişi ilə bağlı məlumat verdilər.

Qəza nəticəsində həlak olmuş 26 Azərbaycan vətəndaşından dördünün cəsədinin ölkəyə gətirilməsi və dəfn olunması ilə bağlı zəruri tədbirlərin görüldüyü bildirildi. Həlak olmuş digər 22 şəxsin cəsədinin məhkəmə-tibbi ekspertiza və digər zəruri tədbirlər bitdikdən sonra tezliklə ölkəmizə gətirilməsi ilə bağlı məsələlər müzakirə olundu.

Komissiya üzvlərinə təyyarə qəzasında xəsarət alanlara və həlak olan şəxslərin ailələrinə zəruri maddi yardım, mənəvi-psixoloji dəstək göstərilməsi ilə bağlı məsələlərin qısa zamanda və çevik həll edilməsi tapşırıldı.

Bildirildi ki, hadisənin başvermə səbəblərinin araşdırılması ilə bağlı Qazaxıstan tərəfindən yaradılmış xüsusi komissiya çərçivəsində istintaq tədbirləri davam edir. Diqqətə çatdırıldı ki, Azərbaycanın qəti mövqeyi ondan ibarətdir ki, qəzanın başvermə səbəbləri şəffaf, obyektiv və hərtərəfli araşdırılmalı, ictimaiyyət istintaqın nəticələri barədə məlumatlandırılmalıdır.

## Son ümid, son nəfəs, son uçuş...

### Vəzifə borclarını şərəflə yerinə yetirərək onlarla sərnişinə yaşam şansı verən üç qəhrəman əbədiyyət səmasına uçdu

Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin labüd qəzadan qaçışının olmayacağını yaxşı anlayan ekipaj heyəti əllərindən gələn hər şeyi etməyə çalışmışdılar ki, həm qəzanın fəsadlarını mümkün qədər azalda bilsinlər, həm də sərnişinləri düzgün təlimatlandıraraq onları fiziki, mənəvi baxımdan baş verəcəklərə hazırlasınlar, ən əsası, onlarda həyat yaşamına dair ümidləri sönməyə qoymasınlar.

Həmin məşum dəqiqələrdə təyyarədə Hökumənin dilindən səslənən və indi hər birimizin qulağında dönə-dönə təkrarlanan "Hər şey yaxşı olacaq!" ifadəsi, sözün əsl mənasında, sərnişinlər üçün yaşamla ölüm arasında ümid işartısı oldu.

Hökumə azacıq titrək, eyni zamanda da inamlı səslə dediyi bu sözlərlə insanları həyata elə möhkəm bağladı ki...

Zərifliklə əzəməti, gücü və inamı eyni anda təcəssüm etdirən bu sehrli ifadə ilə, sözün əsl mənasında, həm də elə ölümə hökm etmişdi Hökumə...

Məhz azərbaycanlı üç peşəkar qəhrəman sayəsində bu gün həyatda olan yekaterinburqlu sərnişin Sübxonkul Rəhimov müsahibəsində Hökumənin kritik məqamda əzm və cəsarət nümayiş etdirərək üzərinə düşən vəzifəni mükəmməl şəkildə yerinə yetirdiyini vurğulayıb: "Pilotlara daha yaxın olan stüardessa, xüsusilə qadın üçün vəziyyətin dəhşətli olmasına baxmayaraq dözdü. O, əzm göstərdi. O, belə bir vəziyyətdə yerinə yetirməli olduğu bütün funksiyaları, vəzifələri yerinə yetirirdi".

"Mən onun göstərişinə itaət etdim və kreslonun söykənəcəyinə sıxıldım", - deyə söyləyən sərnişin əlavə edib ki, stüardessa öz işini mükəmməl şəkildə yerinə yetirib, insanları sakitləşdirib.

→ 16

## Aviaqəza ilə bağlı bütün lazımi tədbirlər görüləcək

Dövlət Komissiyası hazırda tam gücü ilə fəaliyyətdədir, dövlətimizin və vətəndaşlarımızın maraq və mənafelərinin hərtərəfli müdafiəsi istiqamətində ardıcıl tədbirlər görülməkdədir. Lakin təəssüflə müşahidə etməkdəyik ki, Azərbaycanın artan güc və imkanları qarşısında aciz duruma düşən ayrı-ayrı subyektlər və onların Azərbaycandakı uzantıları Bakı-Qroznı təyyarəsində yaşanan faciəni fürsətə çevirərək ölkəmiz əleyhinə istifadə etməyə cəhd göstərirlər. Xüsusən təyyarə qəzasını Azərbaycanın quru sərhədlərinin müvəqqəti olaraq vətəndaşların gediş-gəlişi üçün bağlı qalması ilə əlaqələndirməyə, bu prosesdə qeyri-sağlam məntiqə əsaslanan tezislər tirajlamağa çalışırlar. VII çağırış Milli Məclisin ilk iclasındakı tarixi nitqində Prezident İlham Əliyev bəyan etmişdi ki, quru sərhədlərimizin vətəndaşların gediş-gəlişi üçün hələ də bağlı qalması müəyyən çətinliklər yaratsa da, bugünkü geosiyasi vəziyyətdə daxili təhlükəsizliyi təmin etmək üçün yeganə düzgün addımdır.

→ 16

## "Qalıqlar və şahid ifadələri deməyə əsas verir ki, təyyarəyə kənar müdaxilə olub"

"Zərərçəkən sərnişinlər və sağ qalan təyyarə bələdçiləri bildiriblər ki, Qroznı üzərində olarkən partlayış səsi eşidiblər. Hətta təyyarə bələdçisinin birinin qolu yaralanıb. Həmçinin sosial şəbəkələrdən və mətbuatın yaydığı görüntüdən də görmək olur ki, bir xanım qolundan və ayağından xəsarət alıb. Bundan başqa, təyyarənin qanadında deşik izlərini görmək olar. Təyyarənin daxilində füzelyajda müxtəlif kəsici, yaxud da hansısa kənar cismin dəyməsi nəticəsində müxtəlif zədələri müşahidə etmək olur. Rusiya vətəndaşları olan zərərçəkənlər də bildiriblər ki, Qroznı üzərində 3 dəfə partlayış səsi eşidiblər. Onların dediyinə görə, partlayış səsləri kənardan gəlib, daha sonra təyyarəyə nəsə toxunub".



→ 16

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Azərbaycana məxsus sərnişin təyyarəsinin Qazaxıstan Respublikasında qəzaya uğraması, bu hadisə nəticəsində həyatını itirənlərin və xəsarət alanların olması xəbərini dərin təəssüf hissi ilə qarşıladım.

Zati-alinizə və həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm. Allah-Taaladan diləyirəm ki, həyatını itirənlərə rəhmət eləsin, onların yaxınlarına səbir və təsəlli versin, xəsarət alanlara tezliklə sağalmalarını nəsib etsin! Allah Sizi bütün pisliklərdən qorusun!

*Qardaşınız,*

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı***

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Azərbaycana məxsus sərnişin təyyarəsinin Qazaxıstan ərazisində qəzaya uğraması nəticəsində insanların həlak olmaları və xəsarət almaları ilə bağlı xəbəri dərin təəssüf hissi ilə aldım.

Zati-alinizə və həyatını itirənlərin ailələrinə dərin hüznlə başsağlığı verir, Allah-Taaladan dünyasını dəyişənlərə rəhmət, xəsarət alanlara isə şəfa diləyirəm.

*Hörmətlə,*

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Azərbaycana məxsus sərnişin təyyarəsinin Qazaxıstanda qəzaya uğraması, çoxlu sayda insanın həlak olması barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Bu ürəkağrıdan hadisə ilə əlaqədar kədər və hüznümü bölüşür, Sizə və Azərbaycan xalqına, həyatını itirənlərin ailələrinə başsağlığı verirəm. Uca Allahdan mərhumların ruhuna rəhmət diləyir, yaralananlara tezliklə sağalmalarını arzulayıram.

Cənab Prezident, Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Hissein Brahim TAHA,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində çoxlu sayda insanın həlak olması və yaralanması barədə xəbər məni dərindən kədərləndirdi.

Dost Azərbaycan xalqının başına gələn facıə ilə əlaqədar Zati-alinizə və həlak olanların ailələrinə Əlcəzair xalqı, hökuməti adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

Mən Azərbaycan xalqının bu ağır sınaqdan çıxa biləcəyinə əminəm və belə bir çətin zamanda Əlcəzairin ölkənizlə həmrəy olduğunu vurğulayır, xəsarət alanların tezliklə sağalmalarını ürəkdən arzulayıram.

Zati-aliləri, Sizə bir daha dərin hüznlə başsağlığı verir, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında faciəvi şəkildə qəzaya uğraması nəticəsində insanların həlak olması ilə əlaqədar Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan onların ailələrinə və bütün Azərbaycan vətəndaşlarına dərin hüznlə başsağlığı verirəm.

Bu kədərli vaxtda Azərbaycan xalqı ilə həmrəyliyimizi bildirir, yaralıların tezliklə sağalmalarını arzulayırıq.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycana məxsus sərnişin təyyarəsinin Qazaxıstanda faciəvi şəkildə qəzaya uğraması nəticəsində çoxsaylı insanın həlak olması barədə xəbəri dərin kədər hissi ilə qarşıladıq.

İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından Zati-alinizə, Azərbaycan hökumətinə, xalqına və həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Yaralananların tezliklə sağalmalarını arzulayır, bu ağrı-acılı günlərdə Allahdan Sizə və Azərbaycan xalqına səbir və dözüm diləyirəm.

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Zati-aliləri, Qardaşımız İlham Əliyev!

Aktau şəhəri yaxınlığında təyyarə qəzası nəticəsində insanların həyatını itirməsi ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verirłk.

Faciəvi hadisədə həlak olanlara Tanrıdan rəhmət, onların ailələrinə və yaxınlarına isə səbir diləyirik.

*Dərin hörmət və ehtiramla,*

***Daniel Orteqa SAAVEDRA,***
***Nikaraqua Respublikasının Prezidenti,***

***Rosario MURİYO,***
***Nikaraqua Respublikasının vitse-prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz Qardaşım!

Dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin faciəvi şəkildə qəzaya uğraması və çoxsaylı insanın həlak olması barədə xəbəri dərin kədər hissi ilə qarşıladıq.

Sudan xalqı adından və şəxsən öz adımdan Zati-alinizə və həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm. Biz həmçinin bu dəhşətli hadisə zamanı xəsarət alanların tezliklə və tam sağalmaları üçün dua edirik.

Bu kədərli vaxtda mən Sudan hökumətinin və xalqının Azərbaycan Respublikası ilə davamlı həmrəyliyini bir daha təsdiq edirəm. Uca Allahdan diləyirəm ki, həyatını itirənlərə rəhmət eləsin, onların yaxınlarına səbir və təsəlli versin.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Abdel Fattah Al-Burhan Abdelrahman Al-BURHAN,***
***Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

"Azərbaycan Hava Yolları" QSC-yə məxsus təyyarənin sərnişinlərinin və heyət üzvlərinin həlak olması ilə nəticələnən facıə barədə kədərli xəbəri dərin təəssüf hissi ilə qarşıladım.

Kədərinizi bölüşərək həlak olanların ailələrinə və yaxınlarına, qardaş Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Bu ağır itki bizim hamımızın ortaq kədəridir. Yaralananların tezliklə sağalmalarını diləyirəm.

Əminəm ki, qardaş Azərbaycan xalqı özünəməxsus mətanəti və cəsarəti ilə bu çətin sınaqdan çıxacaqdır.

*Hörmətlə,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbəri məni dərindən kədərləndirdi. Bu dəhşətli qəzada həyatını itirən insanlara Allahdan rəhmət, yaralananlara tezliklə şəfa tapmalarını diləyirəm.

Sizə və qardaş Azərbaycan xalqına başsağlığı verirəm.

*Hörmətlə,*

***Binəli YILDIRIM,***
***Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində insan tələfatının kədərləndiyimi bildirir, Sizə və xalqınıza dərin hüznlə başsağlığı verir, ağrınızı bölüşürəm.

Bütün türk dünyasında dərin kədərə səbəb olan qəzada həyatını itirənlərə TÜRKSOY-un Baş Katibliyi adından və şəxsən öz adımdan Allahdan rəhmət, yaralananların tezliklə sağalmalarını diləyirəm.

*Hörmətlə,*

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Katibliyinin beynəlxalq əməkdaşları olaraq "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması və çoxsaylı insan itkisi ilə nəticələnən facıə barədə kədərli xəbər bizi dərindən sarsıtdı.

Facıə zamanı həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayır, bu çətin günlərdə Azərbaycan xalqının kədərini bölüşürük.

*Hörmətlə,*

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisi adından Sizə, Azərbaycan xalqına və həlak olanların yaxınlarına başsağlığı verir, yaralananların tezliklə sağalmalarını arzu edirik.

*Dərin hüznlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

"Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində çoxsaylı insanın həlak olması ilə əlaqədar Qaqauziya sakinləri adından və şəxsən öz adımdan Sizə dərin hüznlə başsağlığı verirəm.

Bu ağır itkinin kədərini bölüşərək, facıə qurbanlarının ailələrinə və yaxınlarına təsəllimizi və dəstəyimizi ifadə edir, həmçinin hadisə nəticəsində yaralananların tezliklə tam sağalmasını arzulayıraq.

*Dərin kədərlə və hüznlə,*

***Yevgeniya QUTSUL,***
***Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun (Qaqauz Yeri) rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Qazaxıstanın Aktau şəhəri yaxınlığında "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində baş vermiş ürəkağrıdan facıə ilə bağlı Sizə şəxsən öz adımdan, İsrail hökuməti və xalqı adından dərin hüznlə başsağlığı verirəm.

İsrail Dövləti çoxsaylı insan itkisi ilə əlaqədar kədərinizi bölüşür. Bu facıə nəticəsində həlak olanların ailələrinə və bütün Azərbaycan xalqına başsağlığı veririk. Yaralıların hamısının tezliklə tam sağalmalarını arzu edirik.

İsrail Dövləti, eləcə də Nəqliyyat və Yol Təhlükəsizliyi Nazirliyi bu çətin vaxtda Sizin yanınızdadır və lazım ola biləcək hər cür yardımı göstərməyə hazırdır.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Miri REQEV,***
***İsrail Dövlətinin nəqliyyat və yol təhlükəsizliyi naziri***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident!

Dekabrın 25-də çoxlu sayda insanın həyatına son qoyan dəhşətli təyyarə qəzası ilə əlaqədar Sizə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Bu faciəli hadisə Kuala-Lumpur əhalisini qəlbən sarsıtdı. Biz bu hüznlü və kədərli vaxtda Azərbaycan xalqı ilə həmrəyik. Facıə zamanı həlak olanların ruhları şad olsun, onların ailələrinə səbir diləyir, yaxınlarına dərin hüznlə başsağlığı veririk.

Sizinlə birlikdə kədərlənirik və həyatını itirənlərin xatirəsini ehtiramla yad edirik.

Zati-aliləri, Kuala-Lumpur əhalisinin və şəxsən mənim başsağlığımızı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hüznlə,*

***Maimuna Mohd ŞƏRİF,***
***Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərinin meri, 2018-2024-cü illərdə BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Möhtərəm Prezident cənab İlham Əliyev!

"İsrail Bizim Evimizdir" Partiyası adından və şəxsən öz adımdan Aktau şəhəri yaxınlığında qəzaya uğrayan "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin sərnişinlərinin və heyət üzvlərinin faciəvi şəkildə həlak olmaları ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verirəm.

Biz Azərbaycan xalqı ilə birlikdə kədərlənirik.

Bütün yaralananların tezliklə şəfa tapmasını arzulayırıq.

*Hörmətlə,*

***Aviqdor LİBERMAN,***
***İsrail Knessetinin deputatı, "İsrail Bizim Evimizdir" Partiyasının sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Dövlətlərarası Aviasiya Komitəsi "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbərini dərin kədər hissi ilə qarşıladı.

Təyyarə qəzasında həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, onların dərdinə şərik oluruq.

*Dərin hörmətlə,*

***Oleq STORÇEVOY,***
***Dövlətlərarası Aviasiya Komitəsinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Aktau yaxınlığında çoxsaylı insan tələfatı ilə nəticələnən faciəvi təyyarə qəzası xəbərini dərin kədər hissi ilə qarşıladım.

Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmalarını arzulayıram.

Bu facıənin ağrı-acısını Azərbaycan xalqı ilə bölüşürəm.

*Hörmətlə,*

***Bakıtcan SAQİNTAYEV,***
***Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri***

## Baş nazir Əli Əsədov Qazaxıstanın Azərbaycandakı səfirliyində olub





**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 27-də Qazaxıstan Respublikasının ölkəmizdəki səfirliyində olub.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, Ə.Əsədov Aktau şəhərində baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə bağlı səfirlikdə açılan matəm kitabına ürək sözlərini yazdı.

Baş nazir Qazaxıstanın ölkəmizdəki səfiri Alim Bayel ilə söhbət etdi.

Ə.Əsədov və A.Bayel Azərbaycan və Qazaxıstan xalqları üçün bu çətin və kədərli məqamda bir-birilərinə və həlak olan şəxslərin ailələrinə başsağlıqlarını ifadə etdilər, xəsarət alanların tezliklə şəfa tapmasını dilədilər.

Hadisənin nəticələrinin aradan qaldırılması ilə bağlı operativ reaksiyaya, müxtəlif dövlət orqanlarının çevik və hərtərəfli dəstəyinə görə Qazaxıstan hökumətinə bir daha minnətdarlıq ifadə olundu.

## Qazaxıstan Parlament Məclisinin Sədri Milli Məclisin Sədri Sahibə Qafarovaya təyyarə qəzası ilə əlaqədar zəng edib

**Qazaxıstan Respublikası Parlament Məclisinin Sədri Yerlan Koşanov Milli Məclisin Sədri Sahibə Qafarovaya zəng edib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Qazaxıstan Parlament Məclisinin Sədri "Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin qəzaya uğraması ilə əlaqədar başsağlığı verib.

Parlament Məclisinin Sədri öz adından və qazaxıstanlı deputatlar adından Azərbaycan xalqına və qəza nəticəsində həyatını itirənlərin ailələrinə, yaxınlarına səbir diləyib, yaralananların tezliklə sağalmalarını arzulayıb.

Spiker Sahibə Qafarova göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirərək, öz növbəsində bu təyyarə qəzasında Qazaxıstan vətəndaşlarının da həlak olması ilə əlaqədar Yerlan Koşanova başsağlığı verib, onların ailələrinə və yaxınlarına səbir diləyib.

***"Azərbaycan"***

## Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanova Milli Məclisin Sədri Sahibə Qafarovaya zəng edib

**Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanova Milli Məclisin Sədri Sahibə Qafarovaya zəng edib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Respublika Şurasının Sədri "Azərbaycan Hava Yolları" şirkətinə məxsus sərnişin təyyarəsinin dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirərkən Qazaxıstanın Aktau şəhəri yaxınlığında faciəli şəkildə qəzaya uğraması ilə əlaqədar özünün və Şuranın deputatları adından Milli Məclisin sədrinə, dost və qardaş Azərbaycan xalqına, qəzada həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, yaralıların tezliklə sağalmalarını arzulayıb.

Spiker Sahibə Qafarova göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirib.

***"Azərbaycan"***

# Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin gəlirləri 38 356 000,0 min manat, xərcləri 41 407 600,0 min manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 37 562 064,0 min manat, yerli gəlirləri 793 936,0 min manat, mərkəzləşdirilmiş xərcləri 40 608 389,0 min manat, yerli xərcləri 799 211,0 min manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 989 000 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 6 344 000 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 46 700 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 392 600 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 8 326 200 000,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 4 568 000 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 405 000 000,0 |
| 2.7. | Aksizlər | 1 840 700 000,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 185 000 000,0 |
| 2.8. | Yol vergisi | 142 800 000,0 |
| 2.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 37 000 000,0 |
| 2.9. | Mədən vergisi | 160 000 000,0 |
| 2.10. | Gömrük rüsumları | 1 810 000 000,0 |
| 2.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 166 000 000,0 |
| 2.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 2 000 000,0 |
| 2.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 612 230 000,0 |
| 2.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 14 481 000 000,0 |
| 2.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 34 000 000,0 |
| 2.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 12 000 000,0 |
| 2.17. | Dövlət rüsumu | 390 000 000,0 |
| 2.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 75 000 000,0 |
| 2.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 880 000 000,0 |
| 2.20. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları üzrə daxilolmalar | 61 220 000,0 |
| 2.21. | Sair daxilolmalar | 185550 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu üzrə daxilolmalar | 340 000 000,0 |
| 3.1.1. | yol vergisi | 142800 000,0 |
| 3.1.2. | mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 7200 000,0 |
| 3.1.3. | idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər | 54200 000,0 |
| 3.1.4. | idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu | 96 400 000,0 |
| 3.1.5. | nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 39100 000,0 |
| 3.1.6. | iriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərinə dair tələblərin pozulmasına görə tətbiq edilmiş inzibati cərimələr | 300 000,0 |

**Maddə 4.** Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən (SVOP əməliyyatları istisna olmaqla) dövlət büdcəsinə 30 faiz həcmində yığım tutulur və bu yığımlar vergi ödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

**Maddə 5.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

5.1. bu Qanunun 9-cu maddəsi ilə 2025-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarına aid edilənlərdən başqa);

5.2. gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və aksiz, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar, sair daxilolmalar, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarının digər gəlirləri.

**Maddə 6.** Bu Qanunun 9-cu maddəsi ilə 2025-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

**Maddə 7.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 7.1. | Ümumi dövlət xidmətləri | 5 261 728 956,0 |
| 7.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 765755192,0 |
| 7.1.2. | beynəlxalq münasibətlər | 502 780 000,0 |
| 7.1.3. | xarici yardımlar | 24 520 000,0 |
| 7.1.4. | elm | 239 213 243,0 |
| 7.1.5. | seçki və statistika tədbirləri | 35 057 321,0 |
| 7.1.6. | büdcələrarası transfertlər | 294 763 000,0 |
| 7.1.6.1. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya (transfertin yuxarı həddi) | 285 713 000,0 |
| 7.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 7 500 000,0 |
| 7.1.6.3. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 550 000,0 |
| 7.1.7. | dövlət borcu | 2 399 640 200,0 |
| 7.2. | Müdafiə və milli təhlükəsizlik | 8 396 297 596,0 |
| 7.2.1. | müdafiə qüvvələri | 2 665 277 196,0 |
| 7.2.2. | milli təhlükəsizlik | 467 917873,0 |
| 7.2.3. | sərhəd xidməti | 540314 143,0 |
| 7.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 5 359711,0 |
| 7.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 4 717 428 673,0 |
| 7.2.5.1. | xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 4 580 000 000,0 |
| 7.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 3 192 002 515,0 |
| 7.3.1. | məhkəmə hakimiyyəti | 151 041 422,0 |
| 7.3.2. | hüquq mühafizə | 2 311 382 766,0 |
| 7.3.3. | prokurorluq | 126 387 272,0 |
| 7.3.4. | məhkəmə qərarlarının icrası | 10 000 000,0 |
| 7.3.5. | hüquqi yardım | 6 061 927,0 |
| 7.3.6. | məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 587 129 128,0 |
| 7.4. | Təhsil | 4 937 283 246,0 |
| 7.4.1. | məktəbəqədər təhsil | 467 441987,0 |
| 7.4.2. | ümumi təhsil | 2 347 506 880,0 |
| 7.4.3. | peşə təhsili | 82 228 666,0 |
| 7.4.4. | orta ixtisas təhsili | 104 858 142,0 |
| 7.4.5. | ali təhsil | 180 731 136,0 |
| 7.4.6. | əlavə təhsil | 20 830 788,0 |
| 7.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 7 493 152,0 |
| 7.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 1 726 192 495,0 |
| 7.5. | Səhiyyə | 1 993 578 359,0 |
| 7.5.1. | poliklinikalar və ambulatoriyalar | 18 082 341,0 |
| 7.5.2. | xəstəxanalar | 249 303 643,0 |
| 7.5.3. | diaqnostika, profilaktika və qan xidməti ilə bağlı fəaliyyət | 5 496 000,0 |
| 7.5.4. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 8 021 082,0 |
| 7.5.5. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 712 675 293,0 |
| 7.5.5.1. | icbari tibbi sığorta fonduna ayrılan vəsait | 1 416 405 000,0 |
| 7.6. | Sosial müdafiə və sosial təminat | 4 751 730 807,0 |
| 7.6.1. | sosial müdafiə | 515 443 904,0 |
| 7.6.2. | sosial təminat | 38 672 446,0 |
| 7.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 50 000,0 |
| 7.6.4. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 4 197 564 457,0 |
| 7.6.4.1. | dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 600 000 000,0 |
| 7.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 621 779 862,0 |
| 7.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 234 559 269,0 |
| 7.7.2. | televiziya, radio və nəşriyyat | 67 746 571,0 |
| 7.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 80 032 720,0 |
| 7.7.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 22 073 699,0 |
| 7.7.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 217 367 603,0 |
| 7.8. | Mənzil və kommunal təsərrüfatı | 369 908 011,0 |
| 7.8.1. | mənzil təsərrüfatı | 69 476 654,0 |
| 7.8.2. | kommunal təsərrüfatı | 160 356 063,0 |
| 7.8.3. | su təsərrüfatı | 13 707 499,0 |
| 7.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 126 367 795,0 |
| 7.9. | Kənd təsərrüfatı | 1 203 805 845,0 |
| 7.9.1. | kənd təsərrüfatı tədbirləri | 574 499540,0 |
| 7.9.2. | baytarlıq | 48 485983,0 |
| 7.9.3. | meliorasiya | 542 683 176,0 |
| 7.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 38 137 146,0 |
| 7.10. | Ətraf mühitin mühafizəsi | 414 191 558,0 |
| 7.10.1. | Ətraf mühitin və təbiətin mühafizəsi | 1 045 766,0 |
| 7.10.2. | bioloji zənginliyin qorunması | 9 274 287,0 |
| 7.10.3. | torpaq və yerquruluşu | 15 100 000,0 |
| 7.10.4. | hidrometeorologiya tədbirləri | 10 591 785,0 |
| 7.10.5. | meşə təsərrüfatı | 20 116 471,0 |
| 7.10.6. | balıqçılıq və ovçuluq | 1 384 537,0 |
| 7.10.7. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 326 083 862,0 |
| 7.10.8. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 30 594 850,0 |
| 7.11. | İqtisadi fəaliyyət | 8 377 525 915,0 |
| 7.11.1. | nəqliyyat və rabitə | 509 262 144,0 |
| 7.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 53 594 784,0 |
| 7.11.3. | tikinti və şəhərsalma | 6 687 457 000,0 |
| 7.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2685400 000,0 |
| 7.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 4 000 000 000,0 |
| 7.11.4. | geodeziya və faydalı qazıntılar | 8 200 000,0 |
| 7.11.5. | yanacaq və enerji kompleksi | 42 634,0 |
| 7.11.6. | iqtisadi fəaliyyətlə bağlı digər xidmətlər | 1 118 969 353,0 |
| 7.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 1 887 767330,0 |
| 7.12.1. | ehtiyat fondları | 448 000 000,0 |
| 7.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 300 000 000,0 |
| 7.12.1.2. | dövlət büdcəsinin ehtiyat fondu | 148 000 000,0 |
| 7.12.2. | məqsədli büdcə fondları | 420 520 000,0 |
| 7.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 420 520 000,0 |
| 7.12.3. | valyuta konvertasiyası | 4 000 000,0 |
| 7.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 1 015 247330,0 |
| 7.12.4.1. | dövlət ehtiyatlarının yaradılması | 35 000 000,0 |
| 7.12.4.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000,0 |
| 7.12.4.3. | ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 15 045 899,0 |
| 7.12.4.4. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 945 201431,0 |

**Maddə 8.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 9.** Azərbaycan Respublikasının şəhər və rayonları üzrə gəlirlər 15 500 000 000,0 manat, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ 152100 000,0 manat, yerli xərclər 799 211 000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 14 553 964 000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 5 275 000,0 manat məbləğində təsdiq edilsin.

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər | | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmişgəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ | | | |
| | **Şəhərlər** | | | | | |
| 1. | Bakı | 14 103 000 000 | 129 467 000 | 358 525 000 | 13 615 008 000 | 0 |
| 2. | Gəncə | 108 103 000 | 1 808 000 | 39 695 000 | 66 600 000 | 0 |
| 3. | Lənkəran | 38 374 000 | 2 560 000 | 9 285 000 | 26 529 000 | 0 |
| 4. | Mingəçevir | 36 540 000 | 65 000 | 15 458 000 | 21 017 000 | 0 |
| 5. | Naftalan | 10 077 000 | 2 000 | 3 151 000 | 6 924 000 | 0 |
| 6. | Sumqayıt | 213 052 000 | 2 455 000 | 32 802 000 | 177 795 000 | 0 |
| 7. | Şəki | 36 992 000 | 1 893 000 | 7 559 000 | 27 540 000 | 0 |
| 8. | Şirvan | 34 040 000 | 1 790 000 | 5 173 000 | 27 077 000 | 0 |
| 9. | Yevlax | 26 014 000 | 2 753 000 | 7 458 000 | 15 803 000 | 0 |
| 10. | Xankəndi | 500 000 | 0 | 0 | 500 000 | 0 |
| | **Rayonlar** | | | | | |
| 11. | Abşeron | 91 527 000 | 166 000 | 11 235 000 | 80 126 000 | 0 |
| 12. | Ağcabədi | 25 021 000 | 1 732 000 | 6 450 000 | 16 839 000 | 0 |
| 13. | Ağdam | 12 004 000 | 35 000 | 7 776 000 | 4 193 000 | 0 |
| 14. | Ağdaş | 13 311 000 | 12 000 | 6 402 000 | 6 897 000 | 0 |
| 15. | Ağdərə | 300 000 | 0 | 0 | 300 000 | 0 |
| 16. | Ağstafa | 12 315 000 | 41 000 | 5 288 000 | 6 986 000 | 0 |
| 17. | Ağsu | 16 486 000 | 1 049 000 | 5 494 000 | 9 943 000 | 0 |
| 18. | Astara | 16 804 000 | 10 000 | 4 555 000 | 12 239 000 | 0 |
| 19. | Balakən | 9 775 000 | 23 000 | 4 411 000 | 5 341 000 | 0 |
| 20. | Beyləqan | 17 698 000 | 33 000 | 5 008 000 | 12 657 000 | 0 |
| 21. | Bərdə | 22 155 000 | 61 000 | 6 895 000 | 15 199 000 | 0 |
| 22. | Biləsuvar | 17 677 000 | 17 000 | 5 241 000 | 12 419 000 | 0 |
| 23. | Cəbrayıl | 2 881 000 | 16 000 | 3 548 000 | 0 | 683 000 |
| 24. | Cəlilabad | 15 640 000 | 35 000 | 6 384 000 | 9 221 000 | 0 |
| 25. | Daşkəsən | 7 315 000 | 1 000 | 3 973 000 | 3 341 000 | 0 |
| 26. | Füzuli | 15 246 000 | 17 000 | 7 165 000 | 8 064 000 | 0 |
| 27. | Gədəbəy | 10 501 000 | 41 000 | 7 625 000 | 2 835 000 | 0 |
| 28. | Goranboy | 13 009 000 | 20 000 | 7 072 000 | 5 917 000 | 0 |
| 29. | Göyçay | 20 025 000 | 16 000 | 5 637 000 | 14 372 000 | 0 |
| 30. | Göygöl | 20 744 000 | 9 000 | 6 100 000 | 14 635 000 | 0 |
| 31. | Hacıqabul | 10 047 000 | 12 000 | 4 646 000 | 5 389 000 | 0 |
| 32. | Xaçmaz | 43 279 000 | 1 544 000 | 8 272 000 | 33 463 000 | 0 |
| 33. | Xızı | 5 866 000 | 5 000 | 3 295 000 | 2 566 000 | 0 |
| 34. | Xocalı | 1 153 000 | 3 000 | 2 144 000 | 0 | 994 000 |
| 35. | Xocavənd | 1 285 000 | 25 000 | 2 344 000 | 0 | 1 084 000 |
| 36. | İmişli | 44 010 000 | 1 711 000 | 5 847 000 | 36 452 000 | 0 |
| 37. | İsmayıllı | 16 422 000 | 10 000 | 6 557 000 | 9 855 000 | 0 |
| 38. | Kəlbəcər | 3 766 000 | 4 000 | 4 899 000 | 0 | 1 137 000 |
| 39. | Kürdəmir | 17 367 000 | 18 000 | 5 138 000 | 12 211 000 | 0 |
| 40. | Qax | 6 531 000 | 15 000 | 5 423 000 | 1 093 000 | 0 |
| 41. | Qazax | 22 759 000 | 15 000 | 5 812 000 | 16 932 000 | 0 |
| 42. | Qəbələ | 29 532 000 | 22 000 | 7 538 000 | 21 972 000 | 0 |
| 43. | Qobustan | 6 649 000 | 5 000 | 4 573 000 | 2 071 000 | 0 |
| 44. | Quba | 35 464 000 | 64 000 | 8 841 000 | 26 559 000 | 0 |
| 45. | Qubadlı | 7 105 000 | 4 000 | 4 279 000 | 2 822 000 | 0 |
| 46. | Qusar | 17 408 000 | 28 000 | 6 684 000 | 10 696 000 | 0 |
| 47. | Laçın | 6 700 000 | 75 000 | 5 913 000 | 712 000 | 0 |
| 48. | Lerik | 5 979 000 | 5 000 | 5 449 000 | 525 000 | 0 |
| 49. | Masallı | 17 757 000 | 35 000 | 8 230 000 | 9 492 000 | 0 |
| 50. | Neftçala | 11 915 000 | 28 000 | 5 292 000 | 6 595 000 | 0 |
| 51. | Oğuz | 4 606 000 | 30 000 | 3 961 000 | 615 000 | 0 |
| 52. | Saatlı | 15 716 000 | 8 000 | 5 988 000 | 9 720 000 | 0 |
| 53. | Sabirabad | 17 766 000 | 17 000 | 5 748 000 | 12 001 000 | 0 |
| 54. | Salyan | 18 121 000 | 26 000 | 6 941 000 | 11 154 000 | 0 |
| 55. | Samux | 9 708 000 | 16 000 | 5 317 000 | 4 375 000 | 0 |
| 56. | Siyəzən | 8 625 000 | 17 000 | 3 858 000 | 4 750 000 | 0 |
| 57. | Şabran | 10 906 000 | 21 000 | 4 453 000 | 6 432 000 | 0 |
| 58. | Şamaxı | 18 823 000 | 14 000 | 7 385 000 | 11 424 000 | 0 |
| 59. | Şəmkir | 29 919 000 | 50 000 | 9 406 000 | 20 463 000 | 0 |
| 60. | Şuşa | 4 121 000 | 2 000 | 1 902 000 | 2 217 000 | 0 |
| 61. | Tərtər | 12 404 000 | 17 000 | 6 978 000 | 5 409 000 | 0 |
| 62. | Tovuz | 30 043 000 | 2 022 000 | 7 131 000 | 20 890 000 | 0 |
| 63. | Ucar | 9 853 000 | 21 000 | 3 775 000 | 6 057 000 | 0 |
| 64. | Yardımlı | 4 253 000 | 8 000 | 5 622 000 | 0 | 1 377 000 |
| 65. | Zaqatala | 17 389 000 | 62 000 | 5 919 000 | 11 408 000 | 0 |
| 66. | Zəngilan | 3 056 000 | 3 000 | 2 681 000 | 372 000 | 0 |
| 67. | Zərdab | 6 571 000 | 11 000 | 5 605 000 | 955 000 | 0 |
| | Cəmi | 15 500 000 000 | 152 100 000 | 799 211 000 | 14 553 964 000 | 5 275 000 |

**Maddə 10.** Bu Qanunun 9-cu maddəsi ilə müəyyən edilmiş yerli xərclərin maliyyələşdirilməsi məqsədilə şəhər və rayonların gəlirləri, həmçinin yerli gəlir və xərcləri tənzimləmək üçün ayrılan vəsaitin yuxarı həddi yerli xərcləri təmin etmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin şəhər və rayonlara, onların xərclərinin 10 faizindən çox olmayan hissəsi qədər dövlət büdcəsindən vəsait ayırır.

**Maddə 11.** Azərbaycan Respublikasının 2025-ci ildə dövlət daxili və xarici borclarına xidmətlərlə bağlı xərclərin yuxarı hədləri aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 11.1. | Daxili dövlət borcu üzrə, cəmi o cümlədən: | 958 000 000,0 |
| | faiz ödənişləri | 821 200 000,0 |
| 11.2. | Xarici dövlət borcu üzrə, cəmi o cümlədən: | 1 441 640 200,0 |
| | faiz ödənişləri | 479 278 800,0 |

**Maddə 12.** Azərbaycan Respublikasının 2025-ci il üzrə daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 2 000 000,0 min manat, xarici dövlət borclanmasının yuxarı həddi (limiti) 3 500 000,0 min manat təsdiq edilsin. İl ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 2 000 000,0 min manat məbləğində təsdiq edilsin.

**Maddə 13.** Dövlət büdcəsinin icrası prosesində "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə dövlət büdcəsinin gəlirləri və kəsirinin maliyyələşdirilməsi mənbələri üzrə daxilolmaların vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

**Maddə 14.** Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 051600,0 min manat məbləğində təsdiq edilsin. Onun maliyyələşdirilməsi özəlləşdirmədən, digər mənbələrdən daxilolmalar (daxili və xarici borclanma, 2025-ci il yanvarın 1-nə dövlət büdcəsinin vahid xəzinə hesabının sərbəst qalığı, həmçinin məqsədli büdcə fondlarının vəsaitinin qalığı hesabına həmin fondların kəsirinin bağlanması daxilində) hesabına həyata keçirilsin.

**Maddə 15.** Azərbaycan Respublikasının 2025-ciil icmal büdcəsinin xərclərinin yuxarı həddinin məbləği 47 629 437,6 min manat müəyyən edilsin.

**Maddə 16.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) gəlirləri nəzərə alınmadan, Azərbaycan Respublikasının 2025-ci il icmal büdcəsi kəsirinin yuxarı həddinin məbləği 18 131419,4 min manat məbləğində müəyyən edilsin.

**Maddə 17.** Bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

# "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun 7-ci maddəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində ayrılan vəsaitin məbləği inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşdirilən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə aşağıdakı qaydada təsdiq edilsin:

manatla

| Sıra №-si | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1.1 | Ümumi dövlət xidmətləri | 5 261 728 956.0 | 5 035 497 185.0 | 226 231 771.0 |
| 1.1.1 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 765 755 192.0 | 1 540 905 289.0 | 224 849 903.0 |
| 1.1.1.1 | Azərbaycan Respublikasının Milli Məclisi | 52 850 118.0 | 52 850 118.0 | |
| 1.1.1.2 | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 244 345 212.0 | 244 345 212.0 | |
| 1.1.1.3 | Azərbaycan Respublikasının Nazirlər Kabineti | 31 081 042.0 | 31 081 042.0 | |
| 1.1.1.4 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 15 695 080.0 | 15 695 080.0 | |
| 1.1.1.5 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti | 1 523 470.0 | 1 523 470.0 | |
| 1.1.1.6 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 1 352 098.0 | 1 352 098.0 | |
| 1.1.1.7 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti | 1 305 765.0 | 1 305 765.0 | |
| 1.1.1.8 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 1 239 234.0 | 1 239 234.0 | |
| 1.1.1.9 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 14 870 263.0 | 14 870 263.0 | |
| 1.1.1.10 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 8 600 999.0 | 8 600 999.0 | |
| 1.1.1.11 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 15 282 078.0 | 15 282 078.0 | |
| 1.1.1.12 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 29 843 828.0 | 29 843 828.0 | |
| 1.1.1.13 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 41 417 067.0 | 41 417 067.0 | |
| 1.1.1.14 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 129 573 565.0 | 129 573 565.0 | |
| 1.1.1.15 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 17 281 509.0 | 17 281 509.0 | |
| 1.11.6.6 | Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu | 100 000 000.0 | 100 000 000.0 | |
| 1.11.6.6.1 | Nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) | 85 000 000.0 | 85 000 000.0 | |
| 1.11.6.6.2 | Sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsi | 15 000 000.0 | 15 000 000.0 | |
| 1.11.6.7 | Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu | 10 300 000.0 | 10 300 000.0 | |
| 1.11.6.8 | İqtisadi fəaliyyət sahələri üzrə maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 500 000.0 | 500 000.0 | |
| 1.11.6.9 | Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs | 700 000.0 | 700 000.0 | |
| 1.11.6.10 | "Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxs | 8 600 000.0 | 8 600 000.0 | |
| 1.11.6.11 | "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi" publik hüquqi şəxs | 3 283 257.0 | 3 283 257.0 | |
| 1.11.6.12 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO" publik hüquqi şəxs | 10 035 000.0 | 10 035 000.0 | |
| 1.11.6.13 | Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu" publik hüquqi şəxs | 5 000 000.0 | 5 000 000.0 | |
| 1.11.6.14 | Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində "Azərbaycan Metrologiya İnstitutu" publik hüquqi şəxs | 1 700 000.0 | 1 700 000.0 | |
| 1.11.6.15 | "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti" publik hüquqi şəxs | 7 400 000.0 | 7 400 000.0 | |
| 1.11.6.16 | "Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs | 9 552 590.0 | 9 552 590.0 | |

*Ardı 7-ci səh.*

# "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 6-cı səh.*

| | | | | |
|---|---|---|---|---|
| 1.11.6.17 | "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs | 6 900 290.0 | 6 900 290.0 | |
| 1.11.6.18 | "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs | 4 889 900.0 | 4 889 900.0 | |
| 1.11.6.19 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" publik hüquqi şəxs ("Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası olaraq mikro, kiçik və orta sahibkarlıq subyektlərinin bazarlara çıxışının asanlaşdırılması, satış imkanlarının genişləndirilməsi, innovativ layihələrin dəstəklənməsi, xidmətlərə çıxışın rəqəmsallaşdırılması və biznesin mühitinin inkişafı) | 3 050 000.0 | 3 050 000.0 | |
| 1.11.6.20 | "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs | 13 586 720.0 | 13 586 720.0 | |
| 1.11.6.21 | "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs | 4 889 435.0 | 4 889 435.0 | |
| 1.11.6.22 | Bir sıra dövlət müəssisələrində islahatlar aparılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması, dövlət sifarişi əsasında işlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi, güzəştlərə dair reyestrlərin və elektron informasiya sistemlərinin yaradılması və onlara xidmətlə bağlı xərclər | 5 000 000.0 | 5 000 000.0 | |
| 1.11.6.23 | İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı | 462 000 000.0 | 462 000 000.0 | |
| 1.11.6.24 | Dövlət zəmanəti ilə verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması | 60 860 486.0 | 60 860 486.0 | |
| 1.11.6.25 | İqtisadi fəaliyyət sahələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 5 000 000.0 | 5 000 000.0 | |
| 1.11.6.26 | Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı | 243 100 000.0 | 243 100 000.0 | |
| 1.11.6.27 | İqtisadi fəaliyyət sahələri üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 10 000 000.0 | 10 000 000.0 | |
| 1.11.6.28 | "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihələrinin maliyyələşdirilməsi | 15 284 265.0 | 15 284 265.0 | |
| 1.12 | Əsas bölmələrə aid edilməyən xərclər | 1 887 767 330.0 | 1 858 925 652.0 | 28 841 678.0 |
| 1.12.1 | Ehtiyat fondları | 448 000 000.0 | 448 000 000.0 | |
| 1.12.1.1 | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 300 000 000.0 | 300 000 000.0 | |
| 1.12.1.2 | Dövlət büdcəsinin ehtiyat fondu | 148 000 000.0 | 148 000 000.0 | |
| 1.12.2 | Məqsədli büdcə fondları | 420 520 000.0 | 420 520 000.0 | |
| 1.12.2.1 | "Avtomobil yolları" məqsədli büdcə fondu | 340 000 000.0 | 340 000 000.0 | |
| 1.12.2.2 | Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu | 18 848 100.0 | 18 848 100.0 | |
| 1.12.2.3 | Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu | 7 993 100.0 | 7 993 100.0 | |
| 1.12.2.4 | Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu | 1 210 000.0 | 1 210 000.0 | |
| 1.12.2.5 | Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları | 2 189 500.0 | 2 189 500.0 | |
| 1.12.2.6 | Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu | 279 300.0 | 279 300.0 | |
| 1.12.2.7 | Nəqliyyat vasitələrinin utilizasiyası fondu | 50 000 000.0 | 50 000 000.0 | |
| 1.12.3 | Valyuta konvertasiyası | 4 000 000.0 | 4 000 000.0 | |
| 1.12.3.1 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 4 000 000.0 | 4 000 000.0 | |
| 1.12.4 | Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 1 015 247 330.0 | 986 405 652.0 | 28 841 678.0 |
| 1.12.4.1 | Dövlət ehtiyatlarının yaradılması | 35 000 000.0 | 35 000 000.0 | |
| 1.12.4.2 | Fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000.0 | 20 000 000.0 | |
| 1.12.4.3 | Ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 15 045 899.0 | | 15 045 899.0 |
| 1.12.4.4 | Sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 945 201 431.0 | 931 405 652.0 | 13 795 779.0 |
| 1.12.4.4.1 | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 1 440 000.0 | 1 440 000.0 | |
| 1.12.4.4.2 | Azərbaycan Respublikasının maraqlarının beynəlxalq hüquq çərçivəsində qorunması, beynəlxalq məhkəmələrdə təmsil edilməsi və həmin məhkəmələrin qərarlarının icrası ilə bağlı xərclər | 39 900 000.0 | 39 900 000.0 | |
| 1.12.4.4.3 | Dövlət təltiflərinin hazırlanması | 3 527 886.0 | 3 527 886.0 | |
| 1.12.4.4.4 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 17 387 266.0 | 17 387 266.0 | |
| 1.12.4.4.4.1 | Xüsusi müdafiə olunan və bu qəbildən olan digər sənədlərin çap edilməsi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı xərclər | 6 000 000.0 | 6 000 000.0 | |
| 1.12.4.4.4.2 | İşlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 10 947 266.0 | 10 947 266.0 | |
| 1.12.4.4.4.3 | Beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 440 000.0 | 440 000.0 | |
| 1.12.4.4.5 | İşğaldan azad edilmiş ərazilərdə ödənilmiş kommunal xidmətlərə və məcburi dövlət sosial sığorta haqlarına görə 10 il müddətinə dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı göstərilməsi | 35 800 000.0 | 35 800 000.0 | |
| 1.12.4.4.6 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 100 000 000.0 | 100 000 000.0 | |
| 1.12.4.4.7 | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 28 000 000.0 | 28 000 000.0 | |
| 1.12.4.4.8 | Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər | 9 000 000.0 | 9 000 000.0 | |
| 1.12.4.4.9 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 12 150 500.0 | 12 150 500.0 | |
| 1.12.4.4.10 | Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 50 000 000.0 | 50 000 000.0 | |
| 1.12.4.4.11 | İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması | 5 000 000.0 | 5 000 000.0 | |
| 1.12.4.4.12 | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 629 200 000.0 | 629 200 000.0 | |
| 1.12.4.4.13 | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 13 795 779.0 | | 13 795 779.0 |

2. Müəyyən edilsin ki, bu Fərmanın1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) və 1.11.3.3-cü (İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanunu ilə dövlət büdcəsinin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

3.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bu Fərmanın 1.1.1.57-ci (Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.1.3-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.2.1.4-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.5.2-ci (Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər), 1.3.6.2-ci (Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.3.6.3-cü (Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.5.5.5-ci (Səhiyyə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.6.4.5-ci (Sosial təminat sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər), 1.7.5.24-cü (Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.8.2.7-ci (İstilik təchizatı sistemində islahatlarla bağlı tədbirlər), 1.9.1.5-ci (Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər), 1.11.6.25-ci (İqtisadi fəaliyyət sahələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi) və 1.12.4.1-ci (Dövlət ehtiyatlarının yaradılması) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

3.3. bu Fərmanın 1.1.2.1-ci (Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak),1.1.2.3-cü (Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər), 1.1.2.4.2-ci (Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər), 1.1.3.1-ci (Xarici ölkələrə və beynəlxalq təşkilatlara yardımlar), 1.1.6.2-ci (Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya) və 1.1.6.3-cü (Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya) abzaslarında nəzərdə tutulan vəsaitin xərc istiqamətləri və tədbirlər üzrə bölgüsünü həyata keçirsin;

3.4. bu Fərmanın 1.1.2.2-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları) abzasında nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları üzrə manat və müvafiq xarici valyutalarda bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

3.5. bu Fərmanın 1.1.1.56-cı, 1.1.4.20-ci, 1.4.8.9-cu, 1.4.8.10-cu, 1.11.6.4-cü və 1.12.1.2-ci abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

3.6. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən nərə balıq növünün süni artırılması, təbii populyasiyasının bərpası, qorunması və laboratoriyaların fəaliyyətinin təmin edilməsi işlərini dövlət sifarişi kimi üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.7. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən şəhərsalma işlərini dövlət sifarişi kimi üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.8. bu Fərmanın 13-cü hissəsində verilmiş tapşırığın icrası məqsədilə aidiyyəti torpaq sahələrinin ayrılması və digər məsələlərlə bağlı zəruri tədbirləri həyata keçirsin;

3.9. altı ay müddətində aşağıdakı məsələlərlə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.9.1. sahibkarların dövlət qurumlarına (orqanlarına) müraciətinin elektron təşkili, sahibkarlıq fəaliyyəti üçün zəruri olan bütün məlumatların mərkəzləşmiş qaydada əldə edilməsi, eləcə də sahibkarlıq subyekti barəsində məlumatın işlənilməsinə razılığın idarə olunması, dövlət xidmətlərinin rəqəmsal formada "bir pəncərə" prinsipi əsasında təqdimi və həmin xidmətlərə görə ödənişlərin həyata keçirilməsi, habelə dövlət xidmətinin göstərilməsində istifadə edilən müvafiq dövlət informasiya ehtiyatlarının və sistemlərinin (satınalma, lisenziya və icazələr, vergi, logistika, poçt sahələri prioritet olmaqla) təkmilləşdirilməsi, o cümlədən sahibkarı təmsilçilik səlahiyyətinin idarə edilməsinin təşkili üçün Elektron Hökumət İnformasiya Sisteminin infrastrukturunda "Mygov Biznes" altsistemi yaradılmasına dair;

3.9.2. dövlət orqanları (qurumları) tərəfindən sahibkarlara göstərilən xidmətlərə və hüquqi hərəkətlərə görə müxtəlif həcmdə və sayda rüsum, xidmət haqqı və tariflər formasında alınan ödənişlərin optimallaşdırılması, habelə yalnız Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli Fərmanına əsasən yaradılmış Dövlət Xidmətlərinin Elektron Reyestrinə daxil olan xidmətlər üzrə qanunla nəzərdə tutulmuş əsaslarda və həcmdə yığımların müəyyən olunmasına dair;

3.9.3. dövlət xidmətlərinə əlçatanlığın təmin olunması, effektivlik və şəffaflığın artırılması məqsədilə rəqəmsallaşmayan dövlət xidmətlərinin dairəsinin müəyyən edilməsi və "ASAN xidmət"də göstərilməsinə dair;

3.10. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. 2025-ci ilin dövlət büdcəsinə tutulması vergi orqanlarının səlahiyyətlərinə aid edilmiş vergi və dövlət rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

4.2. 2025-ci ilin dövlət büdcəsinə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş vergilər və gömrük rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

4.3. bu Fərmanın 1.1.4.19-cu, 1.4.8.11-ci, 1.7.5.8-ci, 1.7.5.23-cü, 1.9.1.6-cı, 1.11.1.9-cu, 1.11.6.22-ci, 1.11.6.24-cü, 1.11.6.27-ci, 1.12.4.4.2-ci, 1.12.4.4.3-cü, 1.12.4.4.5-ci, 1.12.4.4.7-ci və 1.12.4.4.9-cu abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

4.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

4.4.1. bu Fərmanın1.5.5.7-ci (Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi), 1.8.4.5-ci (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər), 1.10.7.5-ci (Ətraf mühitin mühafizəsi sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.11.1.11-ci (Nəqliyyat və rabitə sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.11.6.23-cü (İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı), 1.12.4.4.11-ci (İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması) və 1.12.4.4.12-ci (Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.4.2. bu Fərmanın 1.1.1.58-ci, 1.1.4.21-ci, 1.2.5.3-cü, 1.3.6.4-cü, 1.4.8.12-ci, 1.5.5.8-ci, 1.6.3.1-ci, 1.7.5.25-ci, 1.9.4.1-ci, 1.10.8.2-ci, 1.11.6.8-ci və 1.12.4.4.6-cı abzaslarında nəzərdə tutulan vəsaitin (dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini bir ay müddətində təmin etsin;

4.4.3. bu Fərmanın 1.12.2.2-ci, 1.12.2.3-cü, 1.12.2.4-cü, 1.12.2.5-ci, 1.12.2.6-cı və 1.12.2.7-ci abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.4.4. bu Fərmanın 1.1.1.59-cu, 1.1.4.22-ci, 1.1.5.3-cü, 1.2.1.5-ci, 1.3.6.5-ci, 1.4.8.13-cü, 1.5.5.9-cu, 1.6.4.8-ci, 1.7.5.26-cı, 1.8.4.6-cı, 1.9.4.2-ci, 1.10.8.3-cü və 1.11.6.28-ci ("Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihələrinin maliyyələşdirilməsi) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.4.5. bu Fərmanın 1.11.1.10-cu (İctimai nəqliyyat sahəsində islahatlarla bağlı xərclər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təklifləri əsasında həyata keçirsin;

4.5. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun 12-ci maddəsi ilə təsdiq edilmiş daxili və xarici borcalmanın, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) çərçivəsində bazar konyunkturundan asılı olaraq milli və xarici valyutada borcalmanın, o cümlədən dövlət istiqrazlarının buraxılışının həyata keçirilməsi üçün tədbirlər görsün;

4.6. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun 13-cü və 14-cü maddələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

4.7. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin yuxarı həddinin aylıq və rüblük bölgü əsasında həyata keçirilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə əlaqələndirməklə təmin etsin.

6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

6.1. bu Fərmanın 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) abzasında nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini 2025-ci il yanvarın 10-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. bu Fərmanın 1.11.6.1.1-ci (Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması) abzasında nəzərdə tutulan vəsaitin ticarət nümayəndələri üzrə bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin;

6.3. bu Fərmanın 1.11.6.5-ci (Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

6.4. bu Fərmanın 1.11.6.26-cı (Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həyata keçirsin;

6.5. bu Fərmanın 1.12.4.4.8-ci (Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

6.6. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

7.1. bu Fərmanın 1.1.2.4.1-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü bir ay müddətində həyata keçirsin;

7.2. bu Fərmanın 1.1.3.2-ci (Xarici yardımlar və bununla bağlı digər tədbirlər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

8. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Fərmanın 1.6.4.6-cı (Paralimpiya, abilimpiya və xüsusi olimpiya oyunlarının keçirilməsi, hazırlıq və digər təşkilati işlər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

9. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmanın 1.7.4.2-ci (Qeyri-dövlət təşkilatlarına maliyyə yardımı) abzasında nəzərdə tutulan vəsaitin aidiyyəti təşkilatlar arasında bölgüsünü 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin və bölgüyə uyğun ödənişləri təmin etsin.

10. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyibu Fərmanın 1.10.7.3-cü (Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı) və 1.10.7.4-cü (Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) abzaslarında nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə razılaşdırmaqla həyata keçirsin.

11. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi:

11.1. bu Fərmanın 1.11.3.4-cü (Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

11.2. bu Fərmanın 1.12.4.4.10-cu (Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirsin.

12. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi bu Fərmanın 1.12.4.2-ci (Fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər) abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həyata keçirsin.

13. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi dövlət sərhədindən buraxılış məntəqələrinin genişləndirilməsi, sərhədkeçmə proseslərinin optimallaşdırılması və sürətli keçidin təmin edilməsi, o cümlədən milli və iqtisadi təhlükəsizlik nəzərə alınmaqla sərhəd və gömrük nəzarətinin daha səmərəli təşkili məqsədilə dövlət sərhədindən buraxılış məntəqələrinə bitişik torpaq sahələrindən qeyd edilən məqsədlərə ayrılması üçün aidiyyəti üzrə müraciət etsin və digər məsələlərlə bağlı zəruri tədbirləri həyata keçirsin.

14. Azərbaycan Respublikasının İqtisadiyyat, Mədəniyyət, Gənclər və İdman, Rəqəmsal İnkişaf və Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Elm və Təhsil, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Azərbaycan Respublikasının Diasporla İş üzrə, Dini Qurumlarla İş üzrə dövlət komitələri, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi, Azərbaycan Dövlət Su Ehtiyatları, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət agentlikləri, Bakı Şəhər İcra Hakimiyyəti aidiyyəti üzrə bu Fərmanın 1.1.4.16-cı, 1.1.4.17-ci, 1.1.4.18-ci, 1.4.8.7-ci, 1.4.8.8-ci, 1.6.2.2-ci, 1.6.4.7-ci, 1.7.5.15-ci, 1.7.5.18-ci, 1.7.5.21-ci, 1.8.2.5-ci, 1.8.2.6-cı, 1.9.3.1-ci,1.11.1.6-cı, 1.11.1.7-ci, 1.11.4.2-ci, 1.11.4.3-cü, 1.11.6.9-cu, 1.11.6.12-ci, 1.11.6.13-cü, 1.11.6.14-cü abzaslarında, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 1.1.4.12-ci, 1.1.4.13-cü, 1.1.4.14-cü, 1.1.4.15-ci, 1.2.5.4-cü, 1.4.8.6-cı,1.7.5.12-ci, 1.7.5.13-cü, 1.7.5.14-cü, 1.7.5.16-cı, 1.7.5.17-ci, 1.7.5.19-cu, 1.7.5.20-ci, 1.7.5.22-ci, 1.8.4.2-ci, 1.8.4.3-cü, 1.8.4.4-cü,1.11.6.10-cu, 1.11.6.11-ci, 1.11.6.15-ci, 1.11.6.16-cı, 1.11.6.17-ci, 1.11.6.18-ci, 1.11.6.20-ci, 1.11.6.21-ci abzaslarında göstərilən publik hüquqi şəxslər üçün nəzərdə tutulmuş vəsait daxilində, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 901 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"na uyğun olaraq, müvafiq publik hüquqi şəxslərlə 15 (on beş) gün müddətində dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsini təmin edən ikitərəfli müqavilələrin rəsmiləşdirilməsi üçün tədbirlər görsünlər.

15. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi "Avtomobil yolları" məqsədli büdcə fondunun xərclər smetasını, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin.

16. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcədən maliyyələşdirilən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

17. Azərbaycan Respublikasında iqtisadiyyatın qeyri-neft özəl sektorunda inkişafın dövlətin iqtisadi siyasətinin əsas istiqaməti olduğunu nəzərə alaraq, bütün dövlət orqanları (qurumları) sahibkarlıq fəaliyyəti sahəsində süni maneələrin tam aradan qaldırılması, bu sahədə vəzifəsindən sui-istifadə edən və ya qanun pozuntusuna yol verən şəxslərin Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb olunmasına dair tədbirlər görsünlər.

18. Müəyyən edilsin ki:

18.1. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun 2.14-cü, 2.20-ci maddələrində, 3-cü maddəsinin birinci abzasında, 3.1-ci, 5.1-ci, 5.2-ci (hər iki halda), 7.12.2.1-ci, 9-cu (hər iki halda), 10-cu və 16-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

18.2. həmin Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

18.3. həmin Qanunun 2.14-cü, 5.2-ci və 16-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

18.4. həmin Qanunun 14-cü maddəsinin ikinci cümləsində "məqsədli büdcə fondu" dedikdə Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları və Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur;

18.5. həmin Qanunun 5.2-ci və7.12.2.1-ci maddələrində"məqsədli büdcə fondları" dedikdə "Avtomobil yolları" məqsədli büdcə fondu, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu, Nəqliyyat vasitələrinin utilizasiyası fondu nəzərdə tutulur;

18.6. həmin Qanunun 3-cü, 3.1-ci, 5.1-ci və 9-cu (hər iki halda) maddələrində "məqsədli büdcə fondu" dedikdə "Avtomobil yolları" məqsədli büdcə fondu nəzərdə tutulur;

18.7. həmin Qanunun 2.20-ci maddəsində "məqsədli büdcə fondları" dedikdə Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu, Nəqliyyat vasitələrinin utilizasiyası fondu nəzərdə tutulur.

19. Bu Fərmanın 1-ci hissəsi 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2024-cü il*

# Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği**

2025-ci il üçün yaşayış minimumu ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyən edilsin.

**Maddə 2. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

# "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 75-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 75-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 720 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 381 (Cild I) 2.3-cü bəndinə "digər qeyri-kommersiya qurumlarına" sözlərindən sonra ", habelə bələdiyyələrə (bələdiyyə orqanlarına)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.14-cü bəndinə "digər qeyri-kommersiya qurumları" sözlərindən sonra ", habelə bələdiyyələr (bələdiyyə orqanları)" sözləri əlavə edilsin.

3. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948) 5.48-ci bəndinə (birinci halda) "şəxslərə" sözündən sonra ", habelə bələdiyyələrə (bələdiyyə orqanlarına)" sözləri əlavə edilsin.

4. "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 oktyabr tarixli 1083 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1642 (Cild I) 2-ci hissəsinə "qeyri-kommersiya qurumlarına" sözlərindən sonra ", habelə bələdiyyələrə (bələdiyyə orqanlarına)" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 3.1-ci bəndinə "şəxslərə" sözündən sonra ", habelə bələdiyyələrə (bələdiyyə orqanlarına)" sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 75-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2024-cü il*

# "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 10, maddə 870 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci abzasdan "dövlət büdcəsinin" sözləri çıxarılsın;

1.2. 2.2 - 2.4-cü və 2.6-cı bəndlər ləğv edilsin;

1.3. 2.7-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

"2.8. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq göstərdiyi ödənişli xidmətlərdən əldə etdiyi gəlirlər, ianələr, qrantlar və qanunla qadağan edilməyən digər mənbələr.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2024-cü il*

# "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1841 (Cild I); 2024, № 8, maddə 938) 3-cü hissəsində "151" rəqəmləri "156" rəqəmləri ilə, "63" rəqəmləri "68" rəqəmləri ilə əvəz edilsin.

2. Bu Fərman 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2024-cü il*

# Baş Prokurorluğun bir qrup əməkdaşı Qroznı şəhərinə ezam olunub

**Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, Qazaxıstanın Aktau şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması faktı ilə bağlı başlanmış cinayət işi üzrə obyektiv həqiqətin müəyyən olunması istiqamətində təxirəsalınmaz və zəruri tədbirlər davam etdirilir.**




Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu məqsədlə Prokurorluğun bir qrup əməkdaşı Qroznı şəhərinə ezam olunaraq Rusiya Federasiyasının Baş Prokurorluğu ilə razılaşmaya əsasən, həmin qurumdan olan həmkarları ilə birgə istintaq və digər prosessual hərəkətlər aparır.

Xatırladaq ki, dekabrın 25-də Baş prokurorun müavini Elmar Camalovun rəhbərliyi ilə Aktauya ezam olunmuş prokurorluq əməkdaşlarından ibarət daha bir qrup hazırda qəzanın baş verdiyi yerdə Qazaxıstandan olan həmkarları ilə birgə zəruri tədbirlərin icrasını davam etdirir.

# "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci, 16-cı və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348 (Cild I); 2024, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddə 630; Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 44-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 10-cu maddənin ikinci hissəsinin üçüncü abzasında "hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq bu barədə" sözləri "bu barədə hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, sığortaedən Azərbaycan Respublikasında fəaliyyətini müvəqqəti dayandırdıqda, habelə ləğv edildikdə, yaxud sığortaedənin fəaliyyətinə xitam verildikdə isə bu barədə müvafiq ərizədə (arayışda) göstərildiyi tarixdən 30 gün müddətində, lakin hesabatın təqdim edilməsi üçün bu Qanunla müəyyən edilmiş müddətdən gec olmayaraq" sözləri ilə əvəz edilsin;

1.2. 15-ci maddənin birinci hissəsinin on birinci abzasına birinci halda "sığortası üzrə" sözlərindən sonra "qeyri-dövlət sektoruna aid edilən" sözləri əlavə edilsin.

**Maddə 2.** "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 44-VIIQD nömrəli Qanunu) 15-11.3-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

"15-11.3. Bu Qanunun 15-10.1.2-ci maddəsində nəzərdə tutulan sığorta haqqı sığortalı tərəfindən hər ay üçün hesablanır, əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir və hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, sığortalı Azərbaycan Respublikasında fəaliyyətini müvəqqəti dayandırdıqda, habelə sığortalı ləğv edildikdə, yaxud fəaliyyətinə xitam verildikdə isə bu barədə müvafiq ərizədə (arayışda) göstərildiyi tarixdən 30 gün müddətində, lakin hesabatın təqdim edilməsi üçün bu Qanunla müəyyən edilmiş müddətdən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş forma üzrə hesabat təqdim edilir.".

**Maddə 3.** "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514 (Cild I); 2024, № 8, maddə 934) 6.2.11-ci maddəsində "hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq bu barədə" sözləri "bu barədə hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, sığortaedən Azərbaycan Respublikasında fəaliyyətini müvəqqəti dayandırdıqda, habelə ləğv edildikdə, yaxud sığortaedənin fəaliyyətinə xitam verildikdə isə bu barədə müvafiq ərizədə (arayışda) göstərildiyi tarixdən 30 gün müddətində, lakin hesabatın təqdim edilməsi üçün bu Qanunla müəyyən edilmiş müddətdən gec olmayaraq" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** Keçid müddəalar

4.1. Bu Qanunun 1.2-ci maddəsi 2025-ci il yanvarın 1-dən sonra bağlanmış həyatın yığım sığortası və pensiya sığortası müqavilələri üzrə ödənilən sığorta haqlarına münasibətdə tətbiq edilir.

4.2. Qeyri-dövlət sektoruna aid edilməyən sığortaedənlərə münasibətdə 2025-ci il yanvarın 1-dək 3 ildən az olmayan müddətə bağlanmış və həmin tarixədək 3 ili tamam olmamış həyatın yığım sığortası və pensiya sığortası müqavilələri üzrə 2025-ci il yanvarın 1-dək qüvvədə olan sosial sığorta haqqı ilə bağlı güzəşt yalnız həmin müqavilələr bağlandığı tarixdən 3 il ərzində ödənilən sığorta haqlarına tətbiq edilir.

4.3. Qeyri-dövlət sektoruna aid edilməyən sığortaedənlərə münasibətdə 2025-ci il yanvarın 1-dək 3 ildən az olmayan müddətə bağlanmış və həmin tarixədək 3 illik müddəti tamam olmuş həyatın yığım sığortası və pensiya sığortası müqavilələri üzrə 2025-ci il yanvarın 1-dək qüvvədə olan sosial sığorta haqqı ilə bağlı güzəşt yalnız 2025-ci il yanvarın 1-dək ödənilən sığorta haqlarına tətbiq edilir.

**Maddə 5.** Bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

# "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq, "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Torpaq Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478 (Cild I); 2024, № 3, maddə 250, № 7, maddə 770) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 32-ci maddənin 3-cü hissəsinə "icarəsinə" sözündən sonra ", dövlət orqanlarının (qurumlarının) istifadəsinə" sözləri əlavə edilsin;

1.2. 46-cı maddənin 1-ci hissəsinin səkkizinci - on birinci abzasları müvafiq olaraq doqquzuncu - on ikinci abzaslar hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yaradılan süni torpaq sahələri;";

1.3. 56-cı maddəyə aşağıdakı məzmunda 12-ci hissə əlavə edilsin:

"12. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin istifadəyə və icarəyə verilməsinin xüsusiyyətləri "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənir.";

1.4. 66-cı maddəyə aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələri üzərində hüquqların yaranması ilə bağlı münasibətlər "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.".

**Maddə 2.** "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 154 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 66-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5-ci maddənin birinci hissəsinin beşinci - səkkizinci abzasları müvafiq olaraq altıncı - doqquzuncu abzaslar hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yaradılan süni torpaq sahələri;";

2.2. 10-cu maddə üzrə:

2.2.1. ikinci hissəyə "torpaqlar" sözündən sonra "və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yaradılan süni torpaq sahələri" sözləri əlavə edilsin;

2.2.2. aşağıdakı məzmunda onuncu hissə əlavə edilsin:

"Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin icarəyə verilməsi "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.".

**Maddə 3.** "Torpaq bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 390 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 8-ci maddəyə aşağıdakı məzmunda yeddinci hissə əlavə edilsin:

"Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin istifadəyə və icarəyə verilməsi "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.";

3.2. 18-ci maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələri üzərində hüquqların yaranması əsasları "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2024-cü il*

# "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyəti ləğv edilsin.

2. "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin aşağıdakı müəssisələri Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilsin:

2.1. "Azərbaycan alüminiumu" Açıq Səhmdar Cəmiyyəti;

2.2. "Azəralüminium" Məhdud Məsuliyyətli Cəmiyyəti;

2.3. "Azərpambıq Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin və onun tabeliyindəki digər müəssisələrin ləğv edilməsi ilə bağlı zəruri tədbirlər görsün;

3.2. bu Sərəncamın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, normativ hüquqi aktlarda dəyişiklik edilməsi ilə bağlı təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 2-ci hissəsi nəzərə alınmaqla, "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin və onun tabeliyindəki digər müəssisələrin əmlakı ilə bağlı təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2024-cü il*

# İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

1.1. İşsizlikdən sığorta fondunun 2025-ci il üzrə xərcləri 260 700 000,0 manat məbləğində təsdiq edilir. Bu xərclərin maliyyələşmə mənbəyi aşağıdakılardır:

1.1.1. İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsinin gəlirləri 206 400 000,0 manat;

1.1.2. İşsizlikdən sığorta fondunun 2025-ci il yanvarın 1-nə yaradılmış ehtiyatından 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən 54 300 000,0 manat.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2025-ci ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 206 330 000,0 |
| 2.1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 24 882 000,0 |
| 2.1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 24882 000,0 |
| 2.1.3. | qeyri-büdcə sektoru üzrə | 156 566 000,0 |
| 2.2. | Sair gəlirlər | 70 000,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, işsizlikdən sığorta fondunun 2025-ci il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | İşsizliyə görə sığorta ödənişləri | 17 000 000,0 |
| 3.2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 35 000 000,0 |
| 3.3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 1 500 000,0 |
| 3.4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 500 000,0 |
| 3.5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 3 700 000,0 |
| 3.6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 77 000 000,0 |
| 3.7. | Sosial iş yerlərində işçilərin əməkhaqlarının bir hissəsinin maliyyələşdirilməsi | 4 000 000,0 |
| 3.8. | Peşə standartlarının hazırlanması | 1 000 000,0 |
| 3.9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 67 000 000,0 |
| 3.10. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri | 50 000 000,0 |
| 3.11. | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması | 1 000 000,0 |
| 3.12. | Sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi | 2 000 000,0 |
| 3.13. | Qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv məşğulluq tədbirləri | 1 000 000,0 |

**Maddə 4. Maliyyələşmə mənbəyi**

İşsizlikdən sığorta fondunun 2025-ci il yanvarın 1-nə yaradılmış ehtiyatından 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən məbləğ 54 300 000,0 manat təşkil edir.

**Maddə 5. Qalıqlardan istifadə**

İşsizlikdən sığorta fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında qalan sərbəst vəsait "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq növbəti ilin xərclərinin maliyyələşdirilməsinə və (və ya) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən investisiyaya yönəldilir.

**Maddə 6. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

# "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 95-VIIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 95-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 3.9-cu (hər iki halda) və 3.10-cu bəndlərində, 5-ci maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 3.9-cu bəndində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 3.9-cu bəndində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulur;

1.4. həmin Qanunun 3-cü maddəsinin 3.10-cu bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 5-ci maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulur;

1.6. həmin Qanunun 5-ci maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 95-VIIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 95-VIIQ nömrəli Qanununun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş işsizlikdən sığorta haqları üzrə gəlirlərin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. həmin Qanunun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş işsizlikdən sığorta haqları üzrə gəlirlərin aylıq və rüblük bölgüsünü 10 (on) gün müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq etsin;

3.3. büdcə təşkilatlarının 2025-ci il yanvarın 1-dək yaranmış işsizlikdən sığorta haqları üzrə borclarına dair məlumatları 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.4. "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 95-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. işsizlikdən sığorta fondunun 2025-ci il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 95-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. büdcədən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış işsizlikdən sığorta haqları üzrə borclarını 2025-ci il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsın;

5.2. "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 95-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların işsizlikdən sığorta üzrə sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki qurumlarla birlikdə tədbirlər görsünlər.

7. Bu Fərman 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2024-cü il*

# "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci, 10-cu və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 366 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin 1-ci hissəsinin üçüncü cümləsinə "yardımları" sözündən sonra ", "Bələdiyyə maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını (qrant istisna olmaqla) təşkil edən vəsait" sözləri və "olmadan" sözündən sonra "bələdiyyələr, habelə" sözləri əlavə edilsin.

2. 2-ci maddə üzrə:

2.1. 2-ci hissənin birinci cümləsinə "şəxslərinə" sözündən sonra ", habelə bələdiyyələrə" sözləri və ikinci cümləsinə "orqanı" sözündən sonra "bələdiyyələrə," sözü əlavə edilsin;

2.2. 4-cü hissəyə birinci halda "Azərbaycan" sözündən əvvəl "Bələdiyyələr," sözü və "şəxslərinə" sözündən sonra ", o cümlədən bələdiyyələrə" sözləri əlavə edilsin;

2.3. 6-cı hissəyə "şəxslərinə" sözündən sonra ", habelə bələdiyyələrə" sözləri əlavə edilsin.

3. 3-cü maddənin 2-ci hissəsinin dördüncü abzasında "bələdiyyə orqanları" sözləri "bələdiyyələr" sözü ilə əvəz edilsin.

4. 4-cü maddə üzrə:

4.1. 4-cü hissənin birinci cümləsinə birinci halda "Azərbaycan" sözündən əvvəl "Bələdiyyələr," sözü əlavə edilsin;

4.2. 5-ci hissənin ikinci cümləsinə "şəxsləri" sözündən sonra ", habelə bələdiyyələr" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2024-cü il*

# Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

1.1. Dövlət sosial müdafiə fondunun 2025-ci il üzrə xərcləri 7 676 420 000,0 manat məbləğində təsdiq edilir. Bu xərclərin maliyyələşmə mənbəyi aşağıdakılardır:

1.1.1. Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsinin gəlirləri 7 617 400 000,0 manat;

1.1.2. Dövlət sosial müdafiə fondunun 2025-ci il yanvarın 1-nə yaradılmış ehtiyatından 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən 59 020 000,0 manat.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2025-ci ildə dövlət sosial müdafiə fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Məcburi dövlət sosial sığorta haqları, cəmi o cümlədən: | 5 997 400 000,0 |
| 2.1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 1 791 476 400,0 |
| 2.1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 244 292 200,0 |
| 2.1.3. | qeyri-büdcə sektoru üzrə o cümlədən: | 3 961 631 400,0 |
| 2.1.3.1. | sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə | 80 680 000,0 |
| 2.2. | Sair daxilolma, o cümlədən: | 20 000 000,0 |
| 2.2.1. | sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar | 2 600 000,0 |
| 2.3. | Dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait | 1 600 000 000,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | Əhaliyə ödənişlər üzrə xərclər | 7 408 940 000,0 |
| 3.1.1. | əmək pensiyalarının ödənilməsi xərcləri | 7 210 530 000,0 |
| 3.1.2. | məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri, o cümlədən: | 198 410 000,0 |
| 3.1.2.1. | əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə | 48 410 000,0 |
| 3.1.2.2. | hamiləliyə və doğuma görə | 65 000 000,0 |
| 3.1.2.3. | uşağın anadan olmasına görə | 35 000 000,0 |
| 3.1.2.4. | 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar | 10 000 000,0 |
| 3.1.2.5. | dəfn üçün | 40 000 000,0 |
| 3.2. | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər | 25 000 000,0 |
| 3.3. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri | 87 040 000,0 |
| 3.4. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin saxlanılması xərcləri | 149 370 000,0 |
| 3.5. | Beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi xərcləri | 70 000,0 |
| 3.5.1. | Beynəlxalq Sosial Təminat Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 40 000,0 |
| 3.5.2. | Pensiya və Sosial Fondların Beynəlxalq Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 30 000,0 |
| 3.6. | Sair xərclər | 6 000 000,0 |

**Maddə 4. Maliyyələşmə mənbəyi**

Dövlət sosial müdafiə fondunun 2025-ci il yanvarın 1-nə yaradılmış ehtiyatından 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən məbləğ 59 020 000,0 manat təşkil edir.

**Maddə 5. Qalıqlardan istifadə**

Dövlət sosial müdafiə fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında qalan sərbəst vəsait "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq növbəti ilin xərclərinin maliyyələşdirilməsinə və (və ya) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən investisiyaya yönəldilir.

**Maddə 6. Büdcə təşkilatları üzrə sosial sığorta haqları üzrə daxilolmaların tənzimlənməsi**

Büdcə ili ərzində dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər dövlət sosial müdafiə fonduna tam məbləğdə daxil olmadıqda, dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər artırılır, artıq daxil olduqda isə nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər azaldılır.

**Maddə 7. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

# "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 94-VIIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət Sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 94-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 3.3-cü, 3.4-cü bəndlərində və 5-ci maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 3.3-cü bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 3.4-cü bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulur;

1.4. həmin Qanunun 5-ci maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 5-ci maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 94-VIIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 94-VIIQ nömrəli Qanununun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. həmin Qanunun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin aylıq və rüblük bölgüsünü 10 (on) gün müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq etsin;

3.3. büdcə təşkilatlarının 2025-ci il yanvarın 1-dək yaranmış məcburi dövlət sosial sığorta haqları üzrə borclarına dair məlumatları 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.4. "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 94-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 94-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. bu Fərmanın 3.2-ci bəndində qeyd olunan bölgü nəzərə alınmaqla, 2025-ci il üçün dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi ilə bağlı dövlət büdcəsindən ayrılan vəsaitin (transfertin) aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla 10 (on) gün müddətində təsdiq etsin;

5.2. büdcədən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış məcburi dövlət sosial sığorta haqları üzrə borclarını 2025-ci il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsın;

5.3. "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 94-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların məcburi dövlət sosial sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki qurumlarla birlikdə tədbirlər görsünlər.

7. Bu Fərman 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2024-cü il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934; Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 44-VIIQD, 45-VIIQD nömrəli və 22 oktyabr tarixli 58-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12.2-ci maddəyə "güzəştləri" sözündən sonra "və azadolmaları" sözləri əlavə edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Vergi güzəştlərinin və azadolmalarının dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsinin aparılması məqsədilə vergi güzəştləri və azadolmaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada təsnifləşdirilir.";

1.2. 13-cü maddə üzrə:

1.2.1. 13.2.11-ci maddənin ikinci abzasına "mülkiyyət" sözündən sonra ", habelə torpaqdan istifadə" sözləri, "verilməsi," sözündən sonra "torpağın icarəyə verilməsi," sözləri əlavə edilsin;

1.2.2. 13.2.72-ci maddəyə "kod-parol" sözündən sonra "(bu Məcəllənin 218.4.1-ci və 220.10-cu maddələrində nəzərdə tutulan vergi ödəyicilərinə münasibətdə)" sözləri əlavə edilsin;

1.3. 14.6.3.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"14.6.3.3. Ekspert rəyinə əsasən. Malların (işlərin, xidmətlərin) bazar qiymətləri müqavilə əsasında cəlb edilmiş ekspert tərəfindən müəyyənləşdirilir.";

1.4. 16-cı maddə üzrə:

1.4.1. 16.1.4-1-ci maddəyə "sənədləri" sözündən sonra "və məlumatları" sözləri əlavə edilsin;

1.4.2. 16.1.11-11-ci maddə üzrə:

1.4.2.1. birinci abzasa "formada" sözündən sonra "və qaydada" sözləri əlavə edilsin;

1.4.2.2. 16.1.11-11.1-ci maddə ləğv edilsin;

1.4.2.3. 16.1.11-11.3-cü maddənin ikinci abzası üzrə:

1.4.2.3.1. birinci cümləyə "bir" sözündən sonra "və ya bir neçə" sözləri əlavə edilsin;

1.4.2.3.2. ikinci cümləyə "(obyektinə)" sözündən sonra "və ya təsərrüfat subyektlərinə (obyektlərinə)" sözləri əlavə edilsin;

1.4.2.3.3. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bu maddənin tələbləri qeyri-sahibkarlıq və şəxsi istifadə üçün idxal olunan mallara şamil edilmir.";

1.4.3. aşağıdakı məzmunda 16.1.11-15 - 16.1.11-17-ci maddələr əlavə edilsin:

"16.1.11-15. kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarların mülkiyyətçiləri (bazarlar idarəetməyə verildikdə idarəediciləri) tərəfindən əmlak icarəyə verildikdə əmlakı icarəyə götürənin təsərrüfat subyektinin (obyektinin) vergi orqanında uçota alınması həyata keçirildikdən sonra onun həmin təsərrüfat subyektlərində (obyektlərində) fəaliyyət göstərməsinə şərait yaratmaq;

16.1.11-16. kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarlarda daşınmaz əmlak həmin əmlakın mülkiyyətçiləri (bazarlar idarəetməyə verildikdə idarəediciləri) tərəfindən, habelə əmlak icarəyə verildikdə icarəyə götürən tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə edildikdə təsərrüfat subyektinin (obyektinin) girişində həmin təsərrüfat subyektinin (obyektinin) vergi orqanında uçota alınması ilə bağlı (vergi ödəyicisinin adı və VÖEN-i göstərilməklə) məlumatı (arayışı) əks etdirmək (yerləşdirmək);

16.1.11-17. kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarların mülkiyyətçiləri (bazarlar idarəetməyə verildikdə idarəediciləri) tərəfindən icarə müqaviləsinə xitam verilmiş və faktiki olaraq həmin obyektdə fəaliyyət göstərməyən, habelə fəaliyyətini davam etdirən vergi ödəyiciləri barədə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş məlumatı elektron formada hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dək uçotda olduğu vergi orqanına təqdim etmək;";

1.4.4. 16.9-cu maddənin birinci cümləsində "Respublikasının rezidenti olan müəssisə" sözləri "Respublikasında vergi uçotuna alınmış vergi ödəyicisi" sözləri ilə əvəz edilsin və həmin cümləyə "hesabatı" sözündən sonra "və bildirişi" sözləri əlavə edilsin;

1.4.5. 16.11.3-cü maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 16.11.4-cü maddə ləğv edilsin;

1.5. 50.1.14-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 50.1.15-ci və 50.1.16-cı maddələr əlavə edilsin:

"50.1.15. kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarlarda icarəyə götürülən təsərrüfat subyektlərinin (obyektlərinin) vergi orqanında uçota alınması təmin edilmədən icarəyə götürən şəxslərin həmin təsərrüfat subyektlərində (obyektlərində) fəaliyyət göstərməsinə şərait yaradılması hallarının aşkar edilməsi;

50.1.16. kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarlarda sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə edilən təsərrüfat subyektinin (obyektinin) girişində həmin təsərrüfat subyektinin (obyektinin) vergi orqanında uçota alınmasına dair (vergi ödəyicisinin adı və VÖEN-i göstərilməklə) məlumatın (arayışın) əks etdirilməsi (yerləşdirilməsi) hallarına nəzarət edilməsi.";

1.6. 57-ci maddə üzrə:

1.6.1. 57.1-2-ci maddəyə "hesabatın" sözündən sonra "və (və ya) bildirişin" sözləri əlavə edilsin;

1.6.2. 57.3-cü maddədən (birinci halda) "habelə" sözü çıxarılsın və həmin maddəyə (üçüncü halda) "edilməməsinə" sözündən sonra ", eləcə də bu Məcəllənin 16.1.11-17-ci maddəsində göstərilən məlumat formasının müəyyən edilmiş müddətdə təqdim edilməməsinə və ya təqdim edilmiş məlumat formasında təhrif olunmuş məlumatların göstərilməsinə" sözləri əlavə edilsin;

1.6.3. 57.4-cü maddəyə "göstərən" sözündən sonra "və bu Məcəllənin 16.1.4-1-ci maddəsində göstərilən sənədləri və məlumatları vergi orqanının tələbi ilə 60 gün müddətində təqdim etməyən" sözləri əlavə edilsin və həmin maddədə "2000" rəqəmləri "6000" rəqəmləri ilə əvəz edilsin;

1.6.4. 57.5-ci maddəyə "məlumatları" sözündən sonra "həmin maddədə nəzərdə tutulan formada və qaydada" sözləri əlavə edilsin;

1.7. 58-ci maddə üzrə:

1.7.1. 58.2-1-ci maddəyə "verilməsinə" sözündən sonra ", habelə kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarlarda olan təsərrüfat subyektinin (obyektinin) girişində həmin təsərrüfat subyektinin (obyektinin) vergi orqanında uçota alınmasına dair (vergi ödəyicisinin adı və VÖEN-i göstərilməklə) məlumatın (arayışın) əks olunmamasına" sözləri əlavə edilsin;

1.7.2. 58.7-1.9-cu maddədə "və 3.4.11-ci" sözləri ", 3.4.11-ci, 3.4.15-ci və 3.4.16-cı" sözləri ilə əvəz edilsin;

1.7.3. aşağıdakı məzmunda 58.15-2-ci maddə əlavə edilsin:

"58.15-2. Bu Məcəllənin 16.1.11-15-ci maddəsinin tələblərinin pozulması baş verdikdə kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarların mülkiyyətçilərinə (bazarlar idarəetməyə verildikdə idarəedicilərinə) təqvim ili ərzində belə hal birinci dəfə aşkar edildikdə 2000 manat, ikinci dəfə aşkar edildikdə 4000 manat, üç və daha çox dəfə aşkar edildikdə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.";

1.8. 85.4-cü maddənin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"Bu maddənin digər müddəalarından asılı olmayaraq, xarici dövlətlərin səlahiyyətli orqanlarından sorğu və ya xaricdə əldə olunan gəlirlər üzrə müvafiq məlumatlar daxil olduğu hallarda, kameral vergi yoxlamaları sorğu və ya məlumat daxil olduğu tarixdən, səyyar vergi yoxlamaları isə yoxlamanın keçirilməsi haqqında vergi orqanının qərar qəbul etdiyi tarixdən əvvəlki 5 illik dövrü, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq təyin edilən vergi yoxlamaları üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə müvafiq olaraq cinayət məsuliyyətinə cəlbetmə müddəti ilə müəyyən edilən dövrü əhatə edir.";

1.9. 96-cı maddə üzrə:

1.9.1. 96.5-ci maddənin birinci cümləsində "Hüquqi" sözü "Kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlərin Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda fond birjasında təqdim edilməsi istisna olmaqla, hüquqi" sözləri ilə əvəz edilsin;

1.9.2. aşağıdakı məzmunda 96.6-cı maddə əlavə edilsin:

"96.6. Kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlərin Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda fond birjasında təqdim edilməsi üzrə səhmin satış dəyəri ilə alış dəyəri və çəkilən digər xərclər arasındakı fərq vergitutma obyektidir.";

1.10. 101.7-ci maddənin birinci abzasında "işləyən fiziki şəxslərin" sözləri "bu sahə üzrə işləyən mütəxəssislərin" sözləri ilə əvəz edilsin;

1.11. 102-ci maddə üzrə:

1.11.1. 102.1.8-ci maddəyə birinci halda "üzrə" sözündən sonra "qeyri-dövlət sektoruna aid edilən" sözləri əlavə edilsin;

1.11.2. 102.1.11-1-ci maddəyə ikinci halda "şəxslərin" sözündən sonra "bu sahə üzrə" sözləri əlavə edilsin;

1.11.3. aşağıdakı məzmunda 102.1.21-1-ci, 102.1.30-1-ci və 102.9-cu maddələr əlavə edilsin:

"102.1.21-1. texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər tərəfindən ödənilən dividend - texnologiyalar parkının qeydiyyat şəhadətnaməsinin alındığı hesabat ilindən başlayaraq 10 il müddətinə;";

"102.1.30-1. aşağıdakı fəaliyyət növləri ilə məşğul olan və həmin fəaliyyət növlərindən təqvim ili üzrə əldə etdiyi gəlirlərin (xərclər nəzərə alınmadan) həcmi 45000 manatadək olan fiziki şəxslərin həmin fəaliyyətdən əldə etdikləri gəlirlərinin 75 faizi:

102.1.30-1.1. proqram təminatının işlənməsi sahəsində xidmətlər;

102.1.30-1.2. layihə-dizayn və dekorasiya xidmətləri;

102.1.30-1.3. tərcümə xidməti;

102.1.30-1.4. reklam xidməti;

102.1.30-1.5. araşdırma və tədqiqat sahəsində fəaliyyət;

102.1.30-1.6. elm, təhsil, mədəniyyət və idman sahəsində göstərilən xidmətlər;

102.1.30-1.7. hüquq, sərbəst auditor, mühasibat və maliyyə sahəsi üzrə məsləhət xidmətləri;

102.1.30-1.8. jurnalistlərin fəaliyyəti;

102.1.30-1.9. bazar konyukturunun öyrənilməsi;

102.1.30-1.10. qiymətləndirmə fəaliyyəti;

102.1.30-1.11. avtonəqliyyat vasitələri ilə yükdaşımaları istisna olmaqla, sifarişlərin çatdırılması və kuryer fəaliyyəti;

102.1.30-1.12. turizm bələdçiliyi;

102.1.30-1.13. xidmətlərin ixracı.";

"102.9. Bu Məcəllənin 102.1.30-1-ci maddəsində nəzərdə tutulan fəaliyyət sahələrində muzdlu işçi kimi çalışan fiziki şəxsin əmək müqaviləsinə xitam verildiyi, həmin fəaliyyətlə fərdi sahibkar kimi məşğul olduğu və fərdi sahibkar kimi fəaliyyətə başladığı tarixdən 1 il müddətində eyni xidmətləri tam və ya qismən əvvəlki işəgötürənə göstərdiyi halda, həmin fərdi sahibkara bu Məcəllənin 102.1.30-1-ci maddəsində nəzərdə tutulan güzəşt şamil edilmir.

Bu Məcəllənin 102.1.30-1-ci maddəsində nəzərdə tutulan fəaliyyət sahələri ilə məşğul olan fiziki şəxs eyni zamanda digər fəaliyyət sahəsi ilə də məşğul olduqda, həmin maddədə nəzərdə tutulan güzəşt hüququndan o halda istifadə edə bilər ki, bu Məcəllənin 102.1.30-1-ci maddəsində nəzərdə tutulan fəaliyyət sahələrindən əldə edilən illik gəlirlərin illik ümumi gəlirlərdə xüsusi çəkisi 50 faizdən az olmasın.";

1.11.4. 102.1.30-cu maddənin birinci abzasına "müvafiq" sözündən əvvəl "bu Məcəllənin 102.1.30-1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla," sözləri əlavə edilsin;

1.11.5. 102.1.41-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 102.1.42-ci - 102.1.44-cü maddələr əlavə edilsin:

"102.1.42. Azərbaycan Respublikasında teatr, muzey, simfonik orkestr, habelə film istehsalı, yayımı və dublyajı fəaliyyətinə aid qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə royalti gəlirləri - 2025-ci il yanvarın 1-dən 5 il müddətinə;

102.1.43. filmin istehsalı və dublyajı fəaliyyətini həyata keçirən fiziki şəxslərin və filmin prodüserinin həmin fəaliyyətdən əldə etdikləri gəlirlərin 90 faizi - 2025-ci il yanvarın 1-dən 5 il müddətinə;

102.1.44. dövlət-özəl tərəfdaşlığı layihələri üzrə özəl tərəfdaş olan, habelə dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdən aşağı olmayan elektrik enerjisi istehsalı layihələri üzrə istehsalçı olan fərdi sahibkarların həmin layihələr üzrə əldə etdikləri gəlir - müvafiq olaraq "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı müqaviləsində və ya "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış elektrik enerjisinin satınalma müqaviləsi ilə müəyyən olunan müddətə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq.";

1.12. 104-cü maddə üzrə:

1.12.1. 104.6-cı maddənin birinci cümləsində "Hüquqi" sözü "Kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlərin Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda fəaliyyət göstərən fond birjasında təqdim edilməsi istisna olmaqla, hüquqi" sözləri ilə əvəz edilsin;

1.12.2. aşağıdakı məzmunda 104.6-1-ci maddə əlavə edilsin:

"104.6-1. Kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlərin Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda fond birjasında təqdim edilməsi üzrə səhmin satış dəyəri ilə alış dəyəri və çəkilən digər xərclər arasındakı fərq vergitutma obyektidir.";

1.13. 106-cı maddə üzrə:

1.13.1. adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 106. Mənfəət vergisindən azadolmalar və güzəştlər";**

1.13.2. aşağıdakı məzmunda 106.1.13-1-ci maddə əlavə edilsin:

"106.1.13-1. texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər tərəfindən ödənilən dividend - texnologiyalar parkının qeydiyyat şəhadətnaməsinin alındığı hesabat ilindən başlayaraq 10 il müddətinə;";

1.13.3. 106.1.33-cü maddə aşağıdakı redaksiyada verilsin:

"106.1.33. qanunla müəyyən olunmuş qaydada Azərbaycan Respublikasında qeydiyyatdan keçən və teatr, muzey, simfonik orkestr, habelə film istehsalını və dublyajını həyata keçirən kinematoqrafiya müəssisəsinin və filmin prodüserinin həmin fəaliyyətdən əldə etdiyi mənfəətin 90 faizi - 2025-ci il yanvarın 1-dən 5 il müddətinə;";

1.13.4. 106.1.34-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 106.1.35-ci və 106.1.36-cı maddələr əlavə edilsin:

"106.1.35. dövlət-özəl tərəfdaşlığı layihələri üzrə özəl tərəfdaş və ya layihə şirkəti olan, habelə dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdən aşağı olmayan elektrik enerjisi istehsalı layihələri üzrə istehsalçı olan hüquqi şəxslərin həmin layihələr üzrə əldə etdikləri mənfəət - müvafiq olaraq "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı müqaviləsində və ya "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış elektrik enerjisinin satınalma müqaviləsi ilə müəyyən olunan müddətə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq;

106.1.36. "Sosial sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq sərbəst vəsaitlərin investisiyaya yönəldilməsindən əldə olunan gəlirlər.";

1.14. 109.8-ci maddədə "habelə" sözü "qiymətli daşlar, qiymətli metallar, o cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatlar," sözləri ilə əvəz edilsin;

1.15. 122.5-ci maddə ləğv edilsin;

1.16. 124.1-ci maddənin ikinci abzasına "icarəyə verən" sözlərindən sonra "özü və ya onun təyin etdiyi vergi agenti" sözləri əlavə edilsin və həmin abzasdan "özü" sözü çıxarılsın;

1.17. 126-cı maddədə "10" rəqəmləri "5" rəqəmi ilə əvəz edilsin;

1.18. 130-cu maddə üzrə:

1.18.1. 130.6-cı maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Uzunmüddətli müqavilələr üzrə gəlirlərin və gəlirdən çıxılan xərclərin hər hesabat ilinə düşən hissəsinin müəyyən edilməsi aşağıdakı qaydada aparılır:";

1.18.2. aşağıdakı məzmunda 130.6.1 - 130.6.3-cü maddələr əlavə edilsin:

"130.6.1. tikintisi həyata keçirilən hər bir bina üzrə çəkilən xərclər bina üzrə ümumi qiymətləndirilən xərclərlə müqayisə edilir və faktiki çəkilən xərcin ümumi xərclərdə xüsusi çəkisi müəyyənləşdirilir;

130.6.2. həmin binadan təqdim edilmiş yaşayış və qeyri-yaşayış sahələrinin satış dəyəri bu Məcəllənin 130.6.1-ci maddəsinə əsasən müəyyən edilən həcm nisbətində vergi tutulan gəlirlərə aid edilir;

130.6.3. faktiki çəkilən xərclər gəlirdən çıxılan xərclərə aid edilir.";

1.19. 150.3-cü maddə üzrə:

1.19.1. birinci abzasda "xüsusi notariuslar" sözləri "vergi orqanında uçotda olan qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər" sözləri ilə əvəz edilsin;

1.19.2. 150.3.1-ci maddədə "150.1.1, 150.1.2, 150.1.8 və 150.1.17-ci" sözləri "150.1.1-ci, 150.1.2-ci, 150.1.8-ci, 150.1.17-ci və 150.1.18-ci" sözləri ilə əvəz edilsin;

1.19.3. 150.3.3-cü maddədə "və 150.1.17-ci" sözləri ", 150.1.17-ci və 150.1.18-ci" sözləri ilə əvəz edilsin;

1.20. 153.3-cü maddədə, 159.1-ci maddənin ikinci cümləsində, 174.4-cü maddənin birinci cümləsində və 175.12-ci maddədə "3" rəqəmi "5" rəqəmi ilə əvəz edilsin;

1.21. 157.3.3-cü maddənin üçüncü abzasına "habelə" sözündən sonra "2024-cü il yanvarın 1-dən əvvəlki dövrə münasibətdə" sözləri əlavə edilsin;

1.22. 164-cü maddə üzrə:

1.22.1. adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 164. ƏDV-dən azadolmalar və güzəştlər";**

1.22.2. 164.1.19-cu maddədən "istehsal edilmiş" sözləri çıxarılsın;

1.22.3. aşağıdakı məzmunda 164.1.41-4-cü maddə əlavə edilsin:

"164.1.41-4. Azərbaycan Respublikasının ərazisində istehsal olunan avtobusların satışı, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında hüquqi şəxslər tərəfindən istehsal məqsədilə avtobusların ehtiyat hissələrinin idxalı - 2025-ci il yanvarın 1-dən 8 il müddətinə;";

1.22.4. 164.1.52-ci maddədə "4" rəqəmi "5" rəqəmi ilə əvəz edilsin;

1.22.5. 164.1.62-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 164.1.63-cü maddə əlavə edilsin:

"164.1.63. dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində özəl tərəfdaş və ya layihə şirkəti olan, habelə dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdən aşağı olmayan elektrik enerjisi istehsalı layihələri üzrə istehsalçı olan fərdi sahibkarlar və hüquqi şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - müvafiq olaraq "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı müqaviləsində və ya "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış elektrik enerjisinin satınalma müqaviləsi ilə müəyyən olunan müddətə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq.";

1.23. 165-ci maddə üzrə:

1.23.1. 165.1.10-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 165.1.11-ci maddə əlavə edilsin:

"165.1.11. qeyri-rezidentin sifarişi əsasında gəmiqayırma və gəmi təmiri müəssisələri tərəfindən gəmilərin, digər dəniz və su nəqliyyatı vasitələrinin, hidrotexniki qurğuların təmiri üzrə xidmətlərin göstərilməsi.";

1.23.2. 165.3-cü maddəyə "mallara" sözündən sonra ", habelə tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə görə ƏDV yalnız nağdsız ödənişlər üzrə qaytarılır.";

1.23.3. 165.5-ci maddə üzrə:

1.23.3.1. birinci cümləyə "habelə" sözündən əvvəl "teatr tamaşaları, film nümayişi, muzey ziyarəti və simfonik orkestrin konserti sahəsində göstərilən xidmətlərə," sözləri əlavə edilsin;

1.23.3.2. ikinci cümləyə "təşkil edir" sözlərindən sonra "(teatr tamaşaları, film nümayişi, muzey ziyarəti və simfonik orkestrin konserti sahəsində göstərilən xidmətlərə görə qaytarılan məbləğ istisna olmaqla)" sözləri əlavə edilsin;

1.23.3.3. üçüncü cümlə dördüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Teatr tamaşaları, film nümayişi, muzey ziyarəti və simfonik orkestrin konserti sahəsində göstərilən xidmətlərə görə qaytarılan məbləğ yalnız nağdsız qaydada ödənilmiş ƏDV-nin 50 faizini təşkil edir.";

1.24. 185-ci maddə üzrə:

1.24.1. adına "məbləği" sözündən sonra "(vergitutma bazası)" sözləri əlavə edilsin;

1.24.2. 185.1-ci maddənin birinci cümləsinə "məbləği" sözündən və ikinci cümləsinə "əməliyyat" sözündən sonra "(vergitutma bazası)" sözləri əlavə edilsin;

1.24.3. 185.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"185.2. İdxal olunan bu Məcəllənin 190.1.1?190.1.6-cı maddələrində nəzərdə tutulan aksizli mallar üçün vergi tutulan əməliyyatın məbləği (vergitutma bazası) - onların miqdarıdır.

Bu Məcəllənin 190.1.7-190.1.10-cu maddələrində nəzərdə tutulan idxal olunan aksizli mallar üçün vergi tutulan əməliyyat (vergitutma bazası) - onların mühərrikinin həcmidir.

İdxal olunan platinə görə vergi tutulan əməliyyat (vergitutma bazası) platinin hər qramı, qızıla, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarına görə - qızılın min çəki vahidindəki miqdarı, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza görə - almazın karatıdır.

İdxal olunan xəz-dəri məmulatları üçün vergi tutulan əməliyyatın (vergitutma bazasının) məbləği Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin topdansatış bazar qiymətindən aşağı olmayan malların gömrük dəyəridir (aksiz və ƏDV çıxılmaqla).";

1.25. 188-ci maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 188. Aksizdən azadolmalar və güzəştlər";**

1.26. 199-cu maddə üzrə:

1.26.1. adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 199. Əmlak vergisindən azadolmalar və güzəştlər";**

1.26.2. 199.8-ci maddəyə (hər iki halda) "parklarının" sözündən sonra "və sənaye məhəllələrinin" sözləri əlavə edilsin;

1.26.3. aşağıdakı məzmunda 199.22-ci maddə əlavə edilsin:

"199.22. dövlət-özəl tərəfdaşlığı layihələri üzrə özəl tərəfdaş və ya layihə şirkəti olan, habelə dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdən aşağı olmayan elektrik enerjisi istehsalı layihələri üzrə istehsalçı olan fərdi sahibkarlar və hüquqi şəxslər müvafiq olaraq "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı müqaviləsində və ya "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış elektrik enerjisinin satınalma müqaviləsi ilə müəyyən olunan müddətə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq həmin layihələr çərçivəsində istifadə olunan əmlaka görə əmlak vergisini ödəməkdən azaddırlar.";

1.27. 207-ci maddə üzrə:

1.27.1. adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 207. Torpaq vergisindən azadolmalar və güzəştlər";**

1.27.2. 207.4-cü maddəyə (hər iki halda) "parklarının" sözündən sonra "və sənaye məhəllələrinin" sözləri əlavə edilsin;

1.27.3. aşağıdakı məzmunda 207.13-cü və 207.14-cü maddələr əlavə edilsin:

"207.13. Dövlət-özəl tərəfdaşlığı layihələri üzrə özəl tərəfdaş və ya layihə şirkəti olan, habelə dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdən aşağı olmayan elektrik enerjisi istehsalı layihələri üzrə istehsalçı olan fərdi sahibkarlar və hüquqi şəxslər müvafiq olaraq "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı müqaviləsində və ya "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış elektrik enerjisinin satınalma müqaviləsi ilə müəyyən olunan müddətə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq həmin layihələr çərçivəsində istifadə olunan torpaqlara görə torpaq vergisini ödəməkdən azaddırlar.

207.14. Qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında qeydiyyatdan keçən və teatr, muzey, simfonik orkestr, habelə film istehsalını və dublyajını həyata keçirən kinematoqrafiya müəssisələri və film prodüserləri həmin fəaliyyət üzrə istifadə etdikləri torpaqlara görə 2025-ci il yanvarın 1-dən 5 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar.";

1.28. 211.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"211.1.2. Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi onların hər litrinə 0,02 manat olmaqla hesablanır və topdansatış qiymətinə (ƏDV və aksiz daxil olmaqla) əlavə edilir. İdxal olunan avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi onların hər litrinə 0,02 manat olmaqla hesablanır və Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin onların topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinə (idxal rüsumu, aksiz və ƏDV daxil olmaqla) əlavə edilir.";

1.29. aşağıdakı məzmunda 212-1-ci maddə əlavə edilsin:

**"Maddə 212-1. Yol vergisindən azadolmalar və güzəştlər**

212-1.1. Xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada 2025-ci il yanvarın 1-dən etibarən 2 il müddətinə yol vergisindən azaddır:

212-1.1.1. dəmir yolu ilə nəql edilən yüklər Azərbaycan Respublikası ərazisindəki müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi son dəmir yolu stansiyasında xarici dövlətlərin yük avtomobillərinə, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrinə aşırılaraq ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə digər dövlətə daşındıqda;

212-1.1.2. xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri ilə yüklər digər dövlətin ərazisindən Azərbaycan Respublikası ərazisindəki müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi ilk dəmir yolu stansiyasına ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə daşındıqda.";

1.30. 217-1-ci və 218-1-ci maddələrin adları aşağıdakı redaksiyada verilsin:

**"Maddə 217-1. Mədən vergisindən güzəştlər";**

**"Maddə 218-1. Sadələşdirilmiş vergidən azadolmalar və güzəştlər";**

1.31. 221-ci maddə üzrə:

1.31.1. 221.8.5-ci maddəyə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi formada vergi orqanı ilə vergi ödəyicisi arasında razılaşma müqaviləsi bağlanıldıqda bu Məcəllənin 218.4.4-cü maddəsində göstərilən fiziki şəxslər hesablanmış vergini, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqlarını tam məbləğdə ödədikdən sonra "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" vergi orqanına müraciət etmədən 1 iş günündən gec olmayaraq elektron qaydada verilir.";

1.31.2. 221.8.6-cı maddənin birinci və ikinci cümlələri çıxarılsın.

**Maddə 2. Keçid müddəalar**

2.1. Kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarların mülkiyyətçiləri (bazarlar idarəetməyə verildikdə idarəediciləri) tərəfindən bu Qanunun 1.4.3-cü, 1.5-ci, 1.6.2-ci, 1.7.1-ci və 1.7.3-cü maddələri qüvvəyə mindikdən sonra 6 ay müddətində vergi orqanında uçota alınmamış təsərrüfat subyektinin (obyektinin) uçota alınması və həmin təsərrüfat subyektini (obyektini) icarəyə götürənlərin təsərrüfat subyektinin (obyektinin) vergi orqanında uçota alınması təmin edilməlidir.

2.2. Bu Qanunun 1.11.1-ci maddəsi 2025-ci il yanvarın 1-dən sonra bağlanmış həyatın yığım sığortası və pensiya sığortası müqavilələri üzrə ödənilən sığorta haqlarına münasibətdə tətbiq edilir.

2.3. Qeyri-dövlət sektoruna aid edilməyən vergi ödəyicilərinə münasibətdə 2025-ci il yanvarın 1-dək 3 ildən az olmayan müddətə bağlanmış və həmin tarixədək 3 ili tamam olmamış həyatın yığım sığortası və pensiya sığortası müqavilələri üzrə 2025-ci il yanvarın 1-dək qüvvədə olan vergi güzəşti yalnız həmin müqavilələr bağlandığı tarixdən 3 il ərzində ödənilən sığorta haqlarına tətbiq edilir.

2.4. Qeyri-dövlət sektoruna aid edilməyən vergi ödəyicilərinə münasibətdə 2025-ci il yanvarın 1-dək 3 ildən az olmayan müddətə bağlanmış və həmin tarixədək 3 illik müddəti tamam olmuş həyatın yığım sığortası və pensiya sığortası müqavilələri üzrə 2025-ci il yanvarın 1-dək qüvvədə olan vergi güzəşti yalnız 2025-ci il yanvarın 1-dək ödənilən sığorta haqlarına tətbiq edilir.

**Maddə 3. Bu Qanunun qüvvəyə minməsi**

3.1. Bu Qanunun 1.4.3-cü, 1.5-ci, 1.6.2-ci, 1.7.1-ci və 1.7.3-cü maddələri bu Qanun qəbul edildikdən doqquz ay sonra qüvvəyə minir.

3.2. Bu Qanunun 1.13.4-cü maddəsi (Azərbaycan Respublikası Vergi Məcəlləsinin 106.1.36-cı maddəsinə münasibətdə) 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

3.3. Bu Qanunun 1.23.3-cü maddəsi 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

3.4. Bu Qanunun 3.1 - 3.3-cü maddələri nəzərə alınmaqla, bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 16 dekabr 2024-cü il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 12.2-ci maddəsinin ikinci cümləsində, 16.1.11-17-ci, 102.1.44-cü, 106.1.35-ci, 164.1.41-4-cü, 164.1.63-cü (hər iki halda), 199.22-ci, 207.13-cü maddələrində, 212-1.1-ci maddəsinin birinci abzasında, 212-1.1.1-ci, 212-1.1.2-ci maddələrində və 221.8.5-ci maddəsinin ikinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 12.2-ci maddəsinin ikinci cümləsində, 102.1.44-cü, 106.1.35-ci, 164.1.63-cü (birinci halda), 199.22-ci, 207.13-cü maddələrində, 212-1.1-ci maddəsinin birinci abzasında, 212-1.1.1-ci və 212-1.1.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 16.1.11-17-ci və 164.1.41-4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 221.8.5-ci maddəsinin ikinci abzasında "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 164.1.63-cü (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə elektrik enerjisi istehsalı layihələrinə münasibətdə Azərbaycan Respublikasının Energetika Nazirliyi, digər layihələrə münasibətdə isə dövlət tərəfdaşı kimi müəyyən edilən dövlət orqanları (qurumları), habelə bələdiyyələr və ya bələdiyyə müəssisələri nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. vergitutma məqsədləri üçün amortizasiya və təmir xərclərinin uçotunun aparılması mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. aşağıdakı normativ hüquqi aktları dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.2.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 12.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, vergi güzəştlərinin və azadolmaların təsnifləşdirilməsini müəyyən etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 fevral tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi metodologiyası və həmin güzəşt və azadolmaların reyestrinin aparılması Qaydası"nda müvafiq dəyişikliyi;

2.2.2. həmin Məcəllənin 102.1.44-cü, 106.1.35-ci, 164.1.63-cü, 199.22-ci və 207.13-cü maddələrinə uyğun olaraq, dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə elektrik enerjisi istehsalı layihələri üzrə minimum məbləğin həddini;

2.2.3. həmin Məcəllənin 212-1.1-ci maddəsinin birinci abzasına uyğun olaraq, xarici dövlətlərin yük avtomobillərinin, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrinin yol vergisindən azad olunması qaydasını;

2.3. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.1.11-17-ci maddəsinə uyğun olaraq, kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarların mülkiyyətçiləri (bazarlar idarəetməyə verildikdə idarəediciləri) tərəfindən icarə müqaviləsinə xitam verilmiş və faktiki olaraq həmin obyektdə fəaliyyət göstərməyən, habelə fəaliyyətini davam etdirən vergi ödəyiciləri barədə məlumat formasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 dekabr tarixli 239 nömrəli Fərmanı) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 2.8-ci (hər üç halda) maddəsində, 12.2-ci maddəsinin ikinci cümləsində, 13.2.52-ci, 13.2.53-cü, 13.2.58-ci, 13.2.72-ci, 13.2.78-ci (hər üç halda), 13.2.79-cu, 13.2.80-ci (hər iki halda) maddələrində, 13.2.82-ci maddəsinin birinci, ikinci və üçüncü cümlələrində, 13.2.84-cü, 14.3.3-cü, 14-2.2-ci, 15.1.15-ci (hər iki halda), 15.1.15-4-cü, 16.1.3-1-ci (hər iki halda), 16.1.4-cü, 16.1.4-1-ci, 16.1.4-2-ci, 16.1.4-3-cü, 16.1.8-ci (hər iki halda), 16.1.11-ci, 16.1.11-11-ci, 16.1.11-12-ci (hər iki halda), 16.1.11-13-cü (hər iki halda), 16.1.11-17-ci, 16.6-cı (hər iki halda), 16.7-ci (hər iki halda), 16.8-ci maddələrində, 16.9-cu maddəsinin birinci cümləsində, 16.10-cu, 22-1.1-ci maddələrinin birinci (hər üç halda) və ikinci cümlələrində, 22-1.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 22-1.3-cü (hər üç halda) maddəsində, 22-1.4-cü maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 23.1.3-2-ci, 23.1.15-1-ci, 24.1.4-1-ci maddələrində, 24.1.6-cı maddəsinin ikinci cümləsində, 24.1.7-1-ci, 26.2-1-ci (hər iki halda), 27.2-ci, 28.3-cü, 30.6.5-ci, 30.6.8-ci, 30.6.9-cu (hər iki halda), 30.6.14-cü, 30.6.15-ci, 30.6.16-cı (hər iki halda), 33.2-ci, 33.7-ci, 33.7.7-ci, 33.7.9-cu (hər üç halda), 33.8-1-ci, 33.10-cu maddələrində, 34.3-1-ci maddəsinin ikinci abzasının birinci cümləsində, 35.1-ci, 35.5-ci (hər iki halda), 35.6-cı, 38.10-cu, 50-2.1-ci, 50-2.2-ci, 58.2-1-ci, 58.11-ci, 65.2.1.2-ci, 65.2.1.3-cü, 65.2.2-ci (hər iki halda), 65.2.3-2-ci, 65.2.3-3-cü (hər iki halda), 67-1.3-cü, 67-2.4-cü, 71-1.3-cü, 71-1.3-1-ci, 71-2.2-ci, 71-3.2-ci, 76.1-1-ci (hər iki halda), 77.5-ci (hər üç halda), 77.6-cı (hər üç halda), 77.7.2-ci, 77.7.3-cü maddələrində, 85.6.2-ci maddəsinin ikinci cümləsində, 85.6.3-cü maddəsində, 85.11-ci maddəsinin birinci və dördüncü cümlələrində, 90.1-ci maddəsində, 90.3-cü maddəsinin birinci hissəsində, 90.3.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 90.3-1-ci, 98.2.7-ci, 101.1-4-cü, 102.1.1-ci (hər iki halda) maddələrində, 102.1.3.4-cü maddəsinin ikinci hissəsində, 102.1.4-cü, 102.1.14.15-ci, 102.1.14.33-cü, 102.1.17-ci, 102.1.21-ci, 102.1.28-ci, 102.1.29-cu (hər iki halda), 102.1.33-cü, 102.1.37-ci, 102.1.39-cu, 102.1.44-cü, 106.1.5-ci (hər iki halda), 106.1.9-cu, 106.1.10-cu, 106.1.12-ci, 106.1.13-cü, 106.1.18-ci (hər iki halda), 106.1.24-cü, 106.1.28-ci, 106.1.31-ci, 106.1.32-ci, 106.1.35-ci, 108.4-cü, 108.5-ci, 111.4-cü, 119.2-ci, 122.3-cü, 128.3-cü, 130.1-1-ci, 144.1.4-cü, 150.3.3-cü maddələrində, 150.3-1-ci maddəsinin ikinci hissəsində, 150.3-4-cü, 150.3-5-ci, 150.3-6-cı, 160.4-cü, 164.1.7-ci, 164.1.10-1-ci, 164.1.15-ci (birinci halda), 164.1.16-cı (birinci halda), 164.1.19-cu, 164.1.19-1-ci, 164.1.20-ci, 164.1.25-ci, 164.1.28-ci (birinci və ikinci hallarda), 164.1.31-ci, 164.1.34-cü, 164.1.35-ci, 164.1.36-cı, 164.1.40-cı, 164.1.41-4-cü, 164.1.42-ci, 164.1.46-cı, 164.1.48-ci (hər iki halda), 164.1.49-cu, 164.1.51-ci, 164.1.52-ci, 164.1.53-cü, 164.1.54-cü, 164.1.56-cı, 164.1.56-1-ci, 164.1.60-cı, 164.1.61-ci (hər iki halda), 164.1.62-ci, 164.1.63-cü (hər iki halda), 165.1.7-ci (hər iki halda), 165.1.9-cu, 165.3-cü maddələrində, 165.5-ci və 165.6-cı maddələrinin birinci cümlələrində, 175.9-cu maddəsində, 175.13-cü maddəsinin ikinci cümləsində, 194.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 199.4.1-1-ci, 199.7-ci, 199.8-ci, 199.16-cı (hər üç halda), 199.17-ci, 199.22-ci, 207.3-cü, 207.4-cü, 207.7-ci (hər üç halda), 207.10-cu, 207.13-cü maddələrində, 212-1.1-ci maddəsinin birinci abzasında, 212-1.1.1-ci, 212-1.1.2-ci, 218-1.1.7-ci maddələrində, 221.4.7-ci maddəsinin birinci cümləsində, 221.4.9-cu maddəsinin ikinci hissəsinin birinci cümləsində, 221.4.10-cu maddəsində (hər iki halda), 221.4.13-cü maddəsinin birinci və ikinci (birinci halda) hissələrində, 221.8.5-ci maddəsinin ikinci abzasında və 227.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

4.2. 1.2-ci bənddən "və 224.4-cü" sözləri çıxarılsın;

4.3. 1.6-cı bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

4.4. 1.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.7. həmin Məcəllənin 2.8-ci maddəsində, 12.2-ci maddəsinin ikinci cümləsində, 13.2.80-ci (birinci halda) maddəsində, 13.2.82-ci maddəsinin birinci və ikinci cümlələrində, 13.2.84-cü, 14.3.3-cü, 15.1.15-ci (birinci halda), 15.1.15-4-cü, 16.1.8-ci (birinci halda), 16.1.11-13-cü (birinci halda) maddələrində, 22-1.1-ci maddəsinin ikinci cümləsində, 33.8-1-ci, 50-2.1-ci, 71-1.3-cü, 71-2.2-ci, 71-3.2-ci, 77.5-ci (birinci halda), 77.6-cı (birinci halda), 77.7.2-ci, 77.7.3-cü maddələrində, 85.6.2-ci maddəsinin ikinci cümləsində, 90.3-1-ci, 98.2.7-ci, 101.1-4-cü, 102.1.1-ci (ikinci halda), 102.1.14.33-cü, 102.1.37-ci, 102.1.44-cü, 106.1.18-ci (birinci halda), 106.1.31-ci, 106.1.35-ci, 108.4-cü, 108.5-ci, 111.4-cü, 119.2-ci, 164.1.7-ci, 164.1.20-ci, 164.1.25-ci, 164.1.31-ci, 164.1.34-cü, 164.1.46-cı, 164.1.60-cı, 164.1.63-cü (birinci halda), 165.1.9-cu, 175.9-cu maddələrində, 194.1-ci maddəsinin birinci cümləsində, 199.4.1-1-ci, 199.17-ci, 199.22-ci, 207.10-cu, 207.13-cü maddələrində, 212-1.1-ci maddəsinin birinci abzasında, 212-1.1.1-ci, 212-1.1.2-ci maddələrində və 227.2-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

4.5. 1.8-ci bənddən "212.6-cı, 212.6.1-ci, 212.6.2-ci," sözləri çıxarılsın;

4.6. 1.10-cu bəndə "16.6-cı" sözlərindən əvvəl "16.1.11-17-ci," sözləri, "150.3-6-cı," sözlərindən sonra "164.1.41-4-cü," sözləri əlavə edilsin və həmin bənddən ", 225.3-cü maddəsinin birinci cümləsində" sözləri çıxarılsın;

4.7. 1.11-ci bənddə "221.8.5-ci maddələrində" sözləri "maddəsində və 221.8.5-ci maddəsinin birinci abzasının birinci cümləsində" sözləri ilə əvəz edilsin və həmin bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

4.8. 1.12-ci bənddə "222.3-cü maddəsinin ikinci cümləsində" sözləri "221.8.5-ci maddəsinin ikinci abzasında" sözləri ilə əvəz edilsin və həmin bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

4.9. 1.13-cü bənddən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

4.10. 1.14-cü bənddən hər iki halda "İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

4.11. aşağıdakı məzmunda 1.23-1-ci bənd əlavə edilsin:

"1.23-1. həmin Məcəllənin 164.1.63-cü (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə elektrik enerjisi istehsalı layihələrinə münasibətdə Azərbaycan Respublikasının Energetika Nazirliyi, digər layihələrə münasibətdə isə dövlət tərəfdaşı kimi müəyyən edilən digər dövlət orqanları (qurumları), habelə bələdiyyələr və ya bələdiyyə müəssisələri nəzərdə tutulur;";

4.12. 1.30-cu və 1.40-1-ci bəndlərdən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında" sözləri çıxarılsın;

4.13. 1.43-1-ci bənddən "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında" və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində" sözləri çıxarılsın;

4.14. 1.43-2-ci bənd ləğv edilsin.

5. Bu Fərman 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2024-cü il*

# Ceyhun Bayramov Hakan Fidanla beynəlxalq və regional məsələləri müzakirə edib

**Dekabrın 27-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı baş tutub.**




XİN-dən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı regional və beynəlxalq təhlükəsizlik, habelə ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

Nazir Hakan Fidan ölkəmizin sərnişin təyyarəsinin Bakı-Qroznı reysini həyata keçirərkən Aktau şəhəri yaxınlığında faciəvi şəkildə qəzaya uğraması ilə bağlı bir daha Türkiyə dövləti və xalqının başsağlığını ifadə edib, qəza nəticəsində vəfat edənlərə rəhmət, yaralılara şəfa arzulayıb. Türkiyənin qardaş Azərbaycanla hər zaman həmrəy olduğu, habelə mümkün dəstəyin göstərilməsinə daim hazır olduğu diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov başsağlığı diləkləri və göstərilən davamlı dəstək və həmrəyliyə görə təşəkkür edib, təyyarə qəzasının səbəblərinin araşdırılmasının birbaşa ölkə rəhbərliyinin nəzarətində olduğunu və bu istiqamətdə dövlət komissiyasının yaradıldığını bildirərək, görülən işlər barədə məlumat verib.

Tərəflər, həmçinin Yaxın Şərqdə, o cümlədən Suriya ətrafında mövcud vəziyyəti müzakirə ediblər. Ölkəmizin Suriyada humanitar yardım niyyəti müzakirə olunub.

Telefon danışığı zamanı, habelə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq perspektivləri və planları nəzərdən keçirilib.

Telefon danışığı çərçivəsində, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Türk Dövlətləri Təşkilatının Baş katibi ilə görüş

**Dekabrın 27-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevlə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Baş katib bir daha "Azərbaycan Hava Yollarına" məxsus təyyarənin qəzaya uğraması ilə bağlı başsağlığı diləklərini çatdırıb, həlak olanların ailələrinə səbir diləyib.

Nazir Ceyhun Bayramov öz növbəsində TDT və Baş katib tərəfindən faciənin ilk anından başsağlığı məktubları və bəyanatlarına görə minnətdarlığını bildirib.

Nazir təşkilat çərçivəsində dostluq, qardaşlıq və əməkdaşlığın gücləndirilməsinin əsas prioritet olduğunu, Azərbaycanın bu potensialın reallaşması istiqamətində Türk Dövlətləri Təşkilatı çərçivəsində atılan addımları, təşəbbüsləri və ideyaları daim dəstəklədiyini, təşkilatın katibliyinin və beynəlxalq təşkilatlarda müşahidəçi statusunun daha da gücləndirilməsinin və genişləndirilməsinin vacib olduğunu vurğulayıb.

Tərəflər bu il Şuşada keçirilmiş qeyri-rəsmi sammitin, sammit zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinin, habelə Bişkekdə keçirilmiş sammit zamanı qəbul edilmiş qərarların təşkilat çərçivəsində çoxşaxəli əməkdaşlıq üçün əhəmiyyətini qeyd ediblər. Bu il ortaq Türk Əlifbasının, təşkilatın yeni bayrağı və loqosunun qəbulunun, təşkilat çərçivəsində Mülki Müdafiə Mexanizminin təsis edilməsi barədə qərarın və bir sıra digər istiqamətlərdə razılıqların təşkilatı daha da gücləndirdiyi diqqətə çatdırılıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 539 QƏRAR Bakı şəhəri, 26 dekabr 2024-cü il

## "Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 755 (Cild I); 2024, № 4, maddə 437) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin (qeydiyyatçı, nəzarətçi, təsərrüfat işçisi, xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) aylıq vəzifə maaşları 2025-ci il yanvarın 1-dən aşağıdakı məbləğdə müəyyən edilsin:

| Sıra №-si | Kateqoriyalar üzrə dövlət orqanları | Aylıq vəzifə maaşının məbləği (manatla) |
|---|---|---|
| 1. | Ali kateqoriya dövlət orqanlarında | 460 |
| 2. | 1-ci kateqoriya dövlət orqanlarında | 445 |
| 3. | 2-ci və 3-cü kateqoriya dövlət orqanlarında | 425 |
| 4. | 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında | 400 |

2. Bu Qərarın 1-ci hissəsində aylıq vəzifə maaşlarının məbləğləri müəyyən edilən işçilərin mükafatlandırılması məqsədilə hər il növbəti il üçün təsdiq edilən dövlət büdcəsində onların çalışdıqları dövlət orqanları üzrə həmin işçilər üçün müəyyən olunmuş aylıq vəzifə maaşının 3 misli həcmində əlavə vəsait nəzərdə tutulur.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 540 QƏRAR Bakı şəhəri, 26 dekabr 2024-cü il

## Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi və "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi və "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi və "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 mart tarixli 89 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 fevral tarixli 68 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 yanvar tarixli 12 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2023-cü il 16 yanvar tarixli 12 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının məbləği bu Qərarın əlavəsinə uyğun olaraq müəyyən edilsin.

2. "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi və "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi və "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 mart tarixli 89 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 fevral tarixli 68 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 yanvar tarixli 12 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 16 yanvar tarixli 12 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 133 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

3. Bu Qərar 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 544 QƏRAR Bakı şəhəri, 26 dekabr 2024-cü il

## "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları"nın təsdiq edilməsi və "Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının aşağı həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 dekabr tarixli 226 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 66-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 noyabr tarixli 236 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur).*

2. "Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının aşağı həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 dekabr tarixli 226 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 877 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissədə "hissəsi" sözü "və 1-2-ci hissələri" sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 1-2-ci hissə əlavə edilsin:

"1-2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məskunlaşan əhalinin icarəsinə birillik və çoxillik əkinlərin aparılması üçün verilən dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların icarə haqqının aşağı həddi bu Qərarın 1-ci hissəsində nəzərdə tutulmuş icarə haqqının miqdarına sıfır əmsalı tətbiq edilməklə hesablanır.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 545 QƏRAR Bakı şəhəri, 27 dekabr 2024-cü il

## Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2025-ci il 1 aprel saat 06:00-dək uzadılsın.

2. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I); 2024, № 3, maddə 308, № 6 (II kitab), maddə 732; № 9, maddə 1103) 1.1-ci bəndində "1 yanvar" sözləri "1 aprel" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 541 QƏRAR Bakı şəhəri, 26 dekabr 2024-cü il

## "İdman sahəsində seleksiya üzrə baş mütəxəssislərə aylıq vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 86 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İdman sahəsində seleksiya üzrə baş mütəxəssislərə aylıq vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 86 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 5, maddə 453 (Cild I) 1-ci hissəsində "1230 (min iki yüz otuz)" sözləri "1425 (min dörd yüz iyirmi beş)" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 542 QƏRAR Bakı şəhəri, 26 dekabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 noyabr tarixli 205 nömrəli Qərarı ilə təsdiq edilmiş "Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri"ndə dəyişiklik edilməsi haqqında

"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 noyabr tarixli 205 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 11, maddə 826 (Cild I) ilə təsdiq edilmiş "Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri" yeni redaksiyada təsdiq edilsin *(əlavə olunur).*

2. Bu Qərar 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin yanvar ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | İsmayıllı | İsmayıllı, Göyçay, Ağsu, Şamaxı, Qobustan | 08 |
| 2. | **Baş prokuror** Kamran Əliyev | Salyan | Salyan, Biləsuvar, Neftçala, Şirvan, Hacıqabul | 10 |
| 3. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Beyləqan | Beyləqan, Füzuli, Xocavənd | 10 |
| 4. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Sumqayıt | Sumqayıt, Abşeron, Xızı, Cəbrayıl, Qubadlı, Şuşa, Zəngilan | 15 |
| 5. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Qobustan | Qobustan, Şamaxı | 16 |
| 6. | **Ədliyyə naziri** Fərid Əhmədov | Astara | Astara, Lənkəran, Masallı, Lerik, Yardımlı | 17 |
| 7. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | Ağstafa | Ağstafa, Qazax, Tovuz | 17 |
| 8. | **Energetika naziri** Pərviz Şahbazov | Qobustan | Qobustan, Şamaxı, Ağsu, Abşeron | 17 |
| 9. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Xızı | Xızı, Siyəzən | 17 |
| 10. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Sabirabad | Sabirabad, Saatlı | 17 |
| 11. | **Mədəniyyət naziri** Adil Kərimli | Şamaxı | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan | 17 |
| 12. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Qusar | Qusar, Quba, Xaçmaz | 17 |
| 13. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri **Zaur Mikayılov** | Quba | Quba, Qusar | 17 |
| 14. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Ağcabədi | Ağcabədi, Ağdam, Bərdə, Tərtər, Laçın | 17 |
| 15. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Hacıqabul | Hacıqabul, Şirvan | 17 |
| 16. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Qusar | Qusar, Quba, Xaçmaz | 22 |
| 17. | Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri **Anar Quliyev** | Xızı | Xızı, Siyəzən | 22 |
| 18. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Zərdab | Zərdab, Ucar, Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Kürdəmir | 24 |
| 19. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Kürdəmir | Kürdəmir, Ucar, Zərdab | 24 |
| 20. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Sabirabad | Sabirabad, Saatlı, İmişli | 24 |
| 21. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Bərdə | Bərdə, Tərtər | 24 |
| 22. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Salyan | Salyan, Neftçala | 24 |
| 23. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Qəbələ | Qəbələ, Oğuz | 24 |
| 24. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Göygöl | Göygöl, Gəncə, Samux, Naftalan, Daşkəsən, Goranboy | 27 |
| 25. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Gəncə | Gəncə, Samux, Göygöl, Kəlbəcər | 30 |
| 26. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | Hacıqabul | Hacıqabul, Şirvan | 31 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

## Milli Məclisin iclasında

# Hərbi çağırış prosesi təkmilləşdirilir

**Dekabrın 27-də Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin dekabrın 25-də Bakı - Qroznı reysini yerinə yetirərkən Qazaxıstanın Aktau şəhəri yaxınlığında faciəli şəkildə qəzaya uğraması barədə fikirlərini bildirib.**



Qəza nəticəsində çoxsaylı insan tələfatı və xəsarət alanların olduğunu deyən Milli Məclisin Sədri bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə dekabrın 26-da ölkə ərazisində matəm elan edilmişdi. Dövlət başçısının sərəncamı ilə qəzanın səbəblərini araşdırmaq üçün Dövlət Komissiyası yaradılmışdı. Qeyd edilib ki, ölkə Prezidentinin tapşırığına əsasən komissiya hadisəni hərtərəfli araşdırıb qəzanın səbəblərini dəqiq müəyyən edəcək və ictimaiyyətə məlumat verəcək.

Spiker təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyib, onların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, yaralıların tezliklə sağalması arzularını ifadə edib.

Sonra Sahibə Qafarova iclasın gündəliyinə 17 məsələnin daxil edildiyini, ilk 3 məsələnin beynəlxalq sənədlərin təsdiq edilməsi barədə qanun layihələri olduğunu bildirib. O, bu qanun layihələrinin "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılaraq qəbul ediləcəyini söyləyib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Söyüdlü (Zod) qızıl yatağının bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə qanun layihəsini təqdim edib. O, qanun layihəsinin dövlət başçısı tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olduğunu deyib.

Bildirilib ki, saziş 2024-cü il dekabrın 10-da Bakı şəhərində "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti ilə "Asian Mining Holding FZ" LLC və "AzerGold"un Ortaq Şirkəti arasında imzalanıb. Qanunun qəbulu ilə sazişlə bağlı bir sıra hüquqi məsələlərin tənzimlənməsi təmin olunacaq. Bura sazişin hüquqi statusunun müəyyən edilməsi, sazişin və əlavələrin qanun olması, onun qanunvericilik sistemində yeri, iştirakçılara zəruri lisenziya, icazə və başqa səlahiyyətlərin verilməsi kimi məsələlər aiddir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Qaya Məmmədov məsələ barədə bu komitənin müsbət rəyini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Maldiv Respublikası Hökuməti arasında diplomatik, xidməti və rəsmi pasport sahiblərinin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə" qanun layihəsini təqdim edib. Komitə sədri cari ilin fevral ayında Bakıda keçirilmiş Asiya Parlament Assambleyasının sessiyası çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın Maldiv Respublikasının spikerini qəbul etdiyini xatırladıb, COP29 beynəlxalq konfransında Maldiv Respublikasının Prezidentinin iştirakını qeyd edib, bu gün ölkələrimiz arasında bir sıra sənədin, o cümlədən hazırda müzakirəyə təqdim olunan sazişin imzalandığını söyləyib.

Adıçəkilən saziş 15 noyabr 2024-cü ildə Bakı şəhərində imzalanıb və dövlətlər arasında ikitərəfli münasibətlərin inkişafı üçün diplomatik, xidməti və rəsmi pasportlara malik olan vətəndaşların hərəkətini asanlaşdırmaq məqsədinə xidmət edir. Razılaşmaya əsasən, tərəflərin etibarlı diplomatik və xidməti (rəsmi) pasportlara malik olan vətəndaşları bir-birinin ərazilərinə vizasız daxil ola, oradan tranzit ilə keçə, oranı tərk edə və giriş tarixindən 90 günə qədər müddətdə orada vizasız qala bilərlər. 90 gündən artıq qalmaq niyyətində olan müvafiq pasport sahiblərinin qalma müddəti onların rəsmi müraciəti əsasında və qəbul edən tərəfin dövlətinin müvafiq orqanlarının icazəsi əsasında həmin dövlətin qanunvericiliyinə uyğun qaydada uzadılır.

Deputat Aydın Mirzəzadə məsələ barədə fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında müdafiə sahəsində hərbi əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsinə dair məlumat verib. O, layihənin ölkə Prezidenti tərəfindən təqdim edildiyini, 13 maddədən ibarət sazişin 30 oktyabr 2024-cü il tarixində Rabat şəhərində imzalandığını bildirib. Qeyd edilib ki, saziş tərəflərin milli qanunvericiliyinə, normativ aktlarına və tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə uyğun olaraq, tərəflər arasında müdafiə sahəsində əməkdaşlıq üçün hüquqi bazanın yaradılması məqsədilə imzalanıb. Sənəddə tərəflər arasında hərbi təlim və təhsil, müdafiə sənayesi və elmi-tədqiqat, hərbi tibb xidmətləri, minatəmizləmə fəaliyyəti, humanitar və sülhməramlı əməliyyatlar, hərbi mədəni və idman tədbirləri və digər sahələrdə mümkün birgə əməkdaşlığın sahələri sadalanır və əməkdaşlıq formalarının bölgüsü aparılır.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan-Mərakeş münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini, 2022-ci ildə Mərakeş Krallığının Nümayəndələr Palatası Sədrinin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakıda keçirilmiş I Konfransında iştirakını, eyni zamanda 2023-cü ildə Milli Məclisin Sədri Sahibə Qafarovanın Mərakeş Krallığına rəsmi səfərini, həmin ildə Azərbaycan parlamentinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xüsusi iclasında Mərakeş Nümayəndələr Palatası Sədrinin iştirakını xatırladıb. O, rəhbərlik etdiyi komitənin məsələ barədə müsbət rəy verdiyini də qeyd edib.

Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Spiker Sahibə Qafarova gündəliyin növbəti 8 məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu və növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu söyləyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. O, parlamentin Sədrinə bu vacib qanun layihəsinin müzakirəsi üçün yaratdığı şəraitə görə təşəkkür edib. Komitə sədri sənədin birinci oxunuşda komitələrin geniş iclasında ətraflı müzakirə edildiyini, habelə plenar iclasdakı müzakirələrdə müraciət edən bütün deputatların öz fikirlərini açıqladıqlarını, ikinci oxunuşdakı müzakirələrdə isə qaldırılan bir sıra məsələlərin işçi qaydasında həll edildiyini söyləyib. O, "Diplomatik xidmət haqqında" qanun layihəsinin dövlət qulluğunun xüsusi növlərini tənzimləyən qanunvericilik aktlarına uyğun olaraq hazırlandığını və qanunvericilik təşəbbüsü subyekti tərəfindən bəzi texniki, redaktə xarakteri düzəlişlərin edildiyini də bildirib.

Qanun layihəsində Azərbaycanın diplomatik xidmət orqanlarının fəaliyyət istiqamətləri və funksiyaları, diplomatik xidmət orqanlarında xidmətin hüquqi əsasları və təşkili qaydaları, eləcə də diplomatik xidmət orqanı əməkdaşlarının hüquqi vəziyyətinin əsasları, əməkdaşların və onların ailə üzvlərinin maddi təminatı və sosial müdafiəsi ilə bağlı məsələlər tənzimlənir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Sosial sığorta haqqında", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, sənəddə təklif olunan dəyişikliklərin "Diplomatik xidmət haqqında" yeni qanun layihəsinə uyğunlaşdırma məqsədi daşıdığını söyləyib.

Qanun layihəsi ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov rəhbərlik etdiyi komitənin rəyini açıqlayıb.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov müzakirələr zamanı konstruktiv fikir mübadiləsinin aparıldığını, yeni layihənin diplomatik fəaliyyətin yüksək səviyyədə təşkili sahəsində əhəmiyyətini qeyd edib, təqdim olunan hər iki sənəd barədə bu komitənin müsbət rəy verdiyini diqqətə çatdırıb.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Plenar iclasda iştirak edən xarici işlər nazirinin müavini Elnur Məmmədov "Diplomatik xidmət haqqında" mühüm əhəmiyyət kəsb edən qanun layihəsini qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edən ölkə Prezidentinə diplomatik xidmət orqanları əməkdaşları adından təşəkkürünü ifadə edib. O, diplomatik xidmət orqanlarının fəaliyyətinin və burada xidmət keçən əməkdaşların təminatının ölkə rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanıldığını vurğulayıb. Nazir müavini diplomatik xidmət əməkdaşlarının bu diqqət və qayğının məsuliyyətini anlayaraq Prezidentin həyata keçirdiyi uğurlu xarici siyasət sahəsində üzərilərinə düşən vəzifələrin icrasında öz səylərini əsirgəmədiklərini bildirib. O qeyd edib ki, bu gün qəbul edilən qanun layihəsi diplomatik xidmət sahəsində fəaliyyətin daha səmərəli təşkilinə öz töhfəsini verəcək.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. O, sənədin birinci və ikinci oxunuşda ətraflı müzakirə edildiyini, verilən rəy və təkliflərlə bağlı fərdi görüşlərin keçirildiyini, ekspertlərin öz fikirlərini bildirdiklərini və məsələnin üçüncü oxunuş üçün komitə tərəfindən tövsiyə edildiyini diqqətə çatdırıb.

Qanun layihəsi müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində göstərilən xidmətlərin optimallaşdırılması və elektronlaşdırılması, habelə hərbi xidmətə çağırışla bağlı müvafiq müddəaların dəqiqləşdirilməsi məqsədilə hazırlanıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bu komitələrin məsələ barədə rəyini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən bəhs edib. O, sənəd barədə birinci və ikinci oxunuş zamanı ətraflı məlumat verildiyini, hər hansı qeyd və təklifin olmadığını deyib, layihənin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Layihə ödənişli avtomobil yollarından istifadə sahəsində qanunvericiliyin təkmilləşdirilməsini və ödənişli avtomagistrallardan istifadə qaydalarını pozan şəxslərin məsuliyyətinin hüquqi əsasının yaradılmasını nəzərdə tutur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. O, birinci və ikinci oxunuşlarda layihə barədə ətraflı məlumat verildiyini, qaldırılan məsələlərlə bağlı işçi qaydada müzakirələrin aparıldığını deyib və sənədin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Layihədə təklif edilən dəyişikliklər yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların təşkili və fəaliyyətinə dair müddəaların daha da təkmilləşdirilməsi, bu sahədə həyata keçirilən tənzimləmənin effektivliliyinin daha da artırılması məqsədilə hazırlanıb.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verərək, sənədə rəhbərlik etdiyi komitədə baxıldığını və müsbət rəy verildiyini deyib.

Layihəyə əsasən, uşaqlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyalarını uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirəcək. Bu komissiyalar həmçinin öz səlahiyyətləri daxilində təhsil müəssisələrində, yetkinlik yaşına çatmayanların işlədikləri müəssisələrdə, təşkilatlarda və idarələrdə onlar arasında tərbiyə işinin təşkilinin monitorinqini də həyata keçirəcəklər.

Bu sənəd barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov, hər iki layihə ilə bağlı İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bu komitələrin rəylərini açıqladıqdan sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Hesabat dövründə yüksək artım dinamikası müşahidə edilən sahələrdən biri də metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalıdır. Cari ilin 11 ayında bu sahələrdə 1 milyard 226,2 milyon manatlıq məhsul istehsal olunmuşdur. Həmin dövr hazır metal məmulatlarının istehsalı sahəsində 35,7, metallurgiya sənayesi məhsullarının istehsalında isə 21,7 faiz atım qeydə alınmışdır. O cümlədən metallurgiya sənayesi üzrə mis məftilin istehsalı 5,1 dəfə, alüminium məmulatlarının istehsalı 49,1, armatur istehsalı 30,4, hazır metal məmulatlarının istehsalı sahəsi üzrə izolyasiyası olmayan çoxnaqilli məftil, troslar və oxşar məmulatların istehsalı 19, metaldan sair məmulatların istehsalı 13,3 faiz artmışdır.

Kompüter, elektron və optik məhsulların istehsalı sahələrində də yüksək dinamika müşahidə olunmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə elektrik avadanlıqlarının istehsalı 29,6, kompüter, elektron və optik məhsulların istehsalı 7,1 faiz artmışdır. Bu dövr ərzində notbukların istehsalı 3 dəfə, güc transformatorlarının istehsalı 60,6, ölçmə cihazlarının istehsalı 47,3 faiz çox olmuşdur.

Qeyri-neft-qaz sənayesindəki yüksək artım dinamikası ölkəmizin hərtərəfli inkişafını ortaya qoyur. Bu sektorun inkişafı ölkənin sənaye mallarına olan daxili tələbatının ödənilməsində, həmçinin ixracın artmasında, idxalın isə azalmasında çox önəmli rol oynayır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



# Məktublar: problemlər, rəylər, təkliflər...



● ŞƏHİDLƏR ÖLMƏZ!

## Tək ailəsinin yox, bütün elimizin qüruru





**Soyuq bir qış günündə Oğuzun Qarabulaq kəndində Beydiyevlər ailəsində ailənin ilkin övladı dünyaya gəlir. Adını Röyal qoyurlar.**

Röyalın gəlişi ilə Nəsib Beydiyevin ailəsində sanki günəş parlayır.

Uşaq yaşlarından ədalətli olması, bütün dostlarının rəğbətini qazanması ilə seçilirdi Röyal. 2022-ci ildə kənd məktəbini bitirən R.Beydiyev 2023-cü ildə hərbi xidmətə yola düşür. Quru qoşunların XTQ-nin tərkibində qulluq edir. 2023-cü il sentyabrın 20-də lokal antiterror tədbirləri zamanı erməni gülləsinə tuş gəlir və Allah dərgahında şəhadətə, şəhidlik zirvəsinə ucalır.

Bu yaxınlarda Qarabulaq kəndində Röyal Beydiyevin adına şəhid bulağının açılışı oldu. İndi kəndə yolu düşən hər kəs şəhid bulağının qarşısından keçib suyundan içəndə Röyalın timsalında bütün şəhidlərin ruhuna dualar oxuyur.

**Şərəf ƏŞRƏFOĞLU,**
**Oğuz rayonunun**
**Qarabulaq kənd sakini**

● RAZILIQ

## Kənd məktəbi təmir olunub

**Son vaxtlar dağlar diyarı Lerikdə mövcud kənd məktəblərinin əsaslı şəkildə yenidən qurulmasına xüsusi diqqət yetirilir.**

Hamarat Lerikin ucqar dağ kəndidir. Buradakı məktəb binası müasir standartlara cavab vermirdi. Təhsil ocağı əsaslı təmir edilərək normal vəziyyətə gətirildi. Hazırda burada tədrisin yüksək səviyyədə təşkilindən ötrü hər cür şərait vardır.

Məktəbin təsərrüfat işləri üzrə direktor müavini Elnur Əsgərov deyir ki, binamız yenicə əsaslı təmirdən çıxıb. Görülən işlərin keyfiyyətinə söz ola bilməz. Otaqların döşəməsi, tavanı yenidən vurulub, bütün qapı və pəncərələr yenilənib. Məktəbin təmiri Dövlət proqramı çərçivəsində Təhsil Nazirliyinin sifarişi ilə həyata keçirilib. Hazırda şagirdlər böyük həvəslə yaraşıqlı, geniş sinif otaqlarında oxuyurlar.



Təmirdən sonra laboratoriyalar, kitabxana, kompüter, eləcə də digər otaqlar öz görkəmi ilə diqqət çəkir. İnventar və avadanlıqlar da yenilənib. Bir sözlə, təhsil ocağı hazırda müasir tələblərə cavab verir.

***Zəfər ORUCOĞLU,***
***Lerik rayon sakini***

● MƏMNUNLUQ

## Təhlükə aradan qaldırıldı

**Uzun illər idi ki, yaşadığımız evi elektrik enerjisi ilə təmin edən naqillər bərbad vəziyyətə düşmüşdü. Bir neçə dəfə rayon elektrik şəbəkəsinin rəhbərliyinə müraciət etsək də, tədbir görülmürdü.**



Nəhayət, bir gün rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev kəndimizdə səyyar görüş keçirərkən problemimizi ona da bildirdik. Başçı əlaqədar təşkilata tapşırıq verdi və problemin tezliklə həll edilməsini tapşırdı. Heç 3 gün keçməmiş rayon elektrik şəbəkəsindən mütəxəssislər gəlib yarımstansiyadan evimizə gələn elektrik kabellərini dəyişdilər. İndi təhlükə sovuşub.

Hörmətli redaksiya, ailəmiz adından bu işdə əməyi olan hər kəsə minnətdarlığımızı çatdırmağınızı xahiş edirik.

***Gülöyşə ƏLİYEVA,***
***Goranboy rayonunun***
***Qazançı kənd sakini***

● Fotoetüd




*Belə bir deyim var ki, yeni ili necə qarşılasan, il boyu həmin əhvali-ruhiyyə ilə də davam edərsən. Ona görə də paytaxt Bakı təzə ili qarşılamağa xüsusi təmtəraqla hazırlaşır. Artıq yeni ilə -2025-ci ilə sayılı günlər qalıb. Küçə və prospektləri bəzəyən rəngarəng işıqlar şəhərimizin gözəlliyinə gözəllik qatıb. Bakının müxtəlif ərazilərində quraşdırılan şam ağacları yaraşıqlı bəzəkləri ilə göz oxşayır. Şəhərin gecə görüntüsü daha əsrarəngizdir. Bir-birindən yaraşıqlı işıqlı tunellər, Yeni ili simvolizə edən atributlar, xüsusi zövqlə təşkil olunan yarmarkalar sakinlərin marağına səbəb olur. Hər il olduğu kimi, Fəvvarələr meydanında Nərgiz Fondunun təşkilatçılığı ilə keçirilən "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası həm ölkəmizə gələn turistlərin, həm də yerli sakinlərin diqqətini cəlb edir. Bayram libasına bürünmüş Dənizkənarı bulvarın ziyarətçiləri də yaradılan gözəllik qarşısında heyrətlərini gizlədə bilmirlər. Şaxta baba, qar adamı, qar qız, yolka ağacı ilə şəkil çəkdirən uşaqların sevinci isə bir başqadır... Bu gözəl mənzərələri fotoların yaddaşına köçürən fotomüxbirimiz İlham Babayevdir.*

● MARAQLI

## Kiçik bağçanın böyük sorağı

**Bizim sumqayıtlılar yeniliyi və maraqlı işlər görməyi sevirlər. Bu günlər 2-ci mikrorayonda 15-ci binanın qarşısında yaratdıqları bağça da belə maraqlı işlərdəndir.**



Həmin binanın sakinləri bir araya gələrək kiçicik torpaq sahəsində bağça salıblar. Bağçada müxtəlif rənglərə boyanmış maşın təkərlərinin içində növbənöv güllər, bəzək ağacları becərilir. Bağça zövqlə hazırlanmış taxtalarla əhatələnib. Ortadakı irigövdəli ağac isə sanki gül kollarına, fidanlara keşik çəkir. Yazda bu kiçik bağça daha gözəl olur. Quşların bağçadakı müqəvvaların üstünə qonaraq oxumaları isə bu gözəlliyə başqa çalar qatır.

Bağça həm də iki məktəbin yolunun üstündədir. Ərazidən keçən şagirdlər də bağçaya biganə qalmırlar. Hətta burada şəkil də çəkdirirlər ki, sosial şəbəkələrdə paylaşsınlar. Bu məşhurluq kənardan bağçanı görməyə gələnlərin sayını da artırıb.

***Elçin NƏSİROV,***
***Sumqayıt şəhərinin***
***2-ci mikrorayon sakini***

● PROBLEM

## Yolumuz bərbad vəziyyətdədir

**Hörmətli redaksiya! Qəzetinizi oxuyarkən "Məktublar" səhifəsi diqqətimizi çəkdi. Adamların problemlərini, şikayətlərini işıqlandırıb həll olunmasına kömək etməyiniz bizim də sizə müraciət ünvanlamağımıza səbəb oldu.**

Sizə Biləcəri qəsəbəsi, Məlik Aslan küçəsi, döngə 1-də yaşayan sakinlər adından müraciət edirik. Yaşadığımız küçə bərbad vəziyyətdədir. Baxmayaraq ki, bura qəsəbənin mərkəzi küçəsi hesab olunur, amma ucqar dağ kəndlərinin yollarını xatırladır. Dağılmış küçəmizə bir əncam çəkən yoxdur.



Xüsusən yağışlı günlərdə böyük çətinliklə üzləşirik, çuxurlara yığılan yağış suları yolları keçilməz edir. Yağışlı, qarlı günlərdə nə edəcəyimizi bilmirik. Odur ki, bizə kömək etməyinizi, səsimizi əlaqədar təşkilatlara çatdırmağınızı xahiş edirik.

***Məlik Aslan küçəsinin sakinləri adından***

**Ceyhun Cəfərov,**
**Hakim Qasımov,**
**Nəcəf Hümmətov,**
**Kənan Gəncəliyev,**
**Qabil Niftəliyev,**
**Şahin Hacıyev,**
**Akif Xəlilov,**
**Fəxrəddin Quliyev,**
**Sevil Mehdiyeva,**
**Müşviq Kazımzadə.**

● GİLEY

## Kəndimizin tibb məntəqəsində həkim yoxdur

**Tovuzun dağ kəndi olan Qəriblidə tibb məntəqəsi olsa da, burada həkim tapılmır. Halbuki tibb məntəqəsi rayonun Qəribli ilə yanaşı, 13 kəndin sakinlərinə də xidmət göstərir. Lakin məntəqədə həkim olmadığından əhali məcbur olub 50 kilometr məsafədə yerləşən rayon mərkəzinə getməli olur.**

Qeyd edim ki, tibb məntəqəsi 53 ildir fəaliyyət göstərir. Bu müddət ərzində məntəqədə çalışan tibb işçiləri yüzlərlə xəstəyə şəfa verib. Lakin son illər həkimin olmaması məntəqənin fəaliyyətini heçə endirib. Burada ancaq tibb bacıları var ki, onlar da təbii ki, həkimi əvəz edə bilmirlər.

Hörmətli redaksiya, xahiş edirik səsimizi TƏBİB-ə çatdırasınız ki, 14 kəndin sakinlərinə tibbi xidmət göstərməli olan tibb məntəqəsinin həkimlə təmin edilməsi barədə tədbir görsün.

***Mürsəl HÜSEYNOV,***
***Tovuz rayonunun Qəribli kənd sakini***

● NARAZILIQ

## Su və kanalizasiya problemimiz həll olunmamış qalır

**Hörmətli redaksiya!**

Biz - Binəqədi rayonu, Sulutəpə qəsəbəsi, Mil küçəsinin sakinləri artıq 24-25 ildir burada yaşayırıq. Qaz, elektrik, telefon-internet xətləri dövlət standartlarına uyğun şəkildə çəkilib. Ancaq su və kanalizasiya sarıdan problemlərimiz hələ də qalır. Öz hesabımıza çəkilən su xətti standartlara uyğun olmadığından tez-tez bizə ciddi problemlər yaradır. 76 mm-lik köhnə boru ilə çəkilmiş xətt mütəmadi sıradan çıxır, evlərimizin zirzəmisinə axır, üstəlik, bu zaman evlərə su gəlmədiyindən susuz qalırıq.

3 il öncə çoxsaylı müraciətlərdən sonra Binəqədi Rayon Su-Kanal İdarəsi tərəfindən tamam yararsız olan su xəttinin 80 metri plastik boru ilə əvəzləndi. Ancaq problem təəssüf ki, yenə də qalır. Xüsusən yay gələn kimi köhnə su boruları partlayır. Qaydalı şəkildə çəkilmədiyindən bir küçədən iki su, iki kanalizasiya xətti keçir.

Problemlərimizdən biri də kanalizasiya xəttinin dözülməz olmasıdır. Hazırda bizim və qonşu küçənin qovşağındakı kanalizasiya xəttinin 25-30 metr hissəsi asfaltlanıb. Ancaq həmin hissə təmir olunmadığından vəziyyət acınacaqlıdır: kanalizasiya xətti tez-tez daşır, ətrafı üfunət bürüyür, çirkli su həyətlərə dolur, xüsusən yayın istisində nəfəs almaq mümkün olmur. İdarənin rəhbərliyi hər il üçün köhnəlmiş su xətlərinin heç olmasa bir hissəsinin plastik boru ilə əvəzlənəcəyinə söz versə də, hələ xəbər yoxdur.

Su və kanalizasiya xətləri bərbad vəziyyətdə olduğuna görə küçəmizin asfaltlanmasını da istəmirik. Ona görə ki, qayğılarımız daha da artacaq, köhnə xətlər asfaltın altında qaldığından bərpası mümkün olmayacaq.

Su və kanalizasiya xətlərinin bu vəziyyəti ekoloji cəhətdən də ciddi fəsadlar yaradır, təsəvvürəgəlməz dərəcədə su israfına səbəb olur.

Problemimizin aradan qaldırılmasında bizə kömək göstərməyinizi, səsimizi əlaqədar təşkilatlara çatdırmağınızı xahiş edirik.

***Mil küçəsinin sakinləri:***
***E.İmaməliyev, C.Sadıqov, H.İbrahimov, R.Xəlilov, O.Səmədov, T.Abdulhəmidov, R.Kərimov, R.İsmayılov, L.Eyvazov, N.Eyvazov, A.Orucov, H.Nuriyev, C.Kərimov, P.Tağıyev, F.İsmayılov, V.Azayev, Q.Qəniyev, X.Əzizov, C.Orucov, Ş.Sabirov və başqaları.***





# Mədəniyyət





● İncəsənət xadimlərimiz

# O, kətana duyğularını köçürürdü

**Ümid, nigaranlıq, intizar və qüssənin rəsmini çəkirdi... Onun təsvirində üzü dönmüş dənizin kənarına toplaşanlar həyəcanla doğmalarından - balıqçılardan xəbər gözləyirlər. Bu gözləmədə bədbəxt hadisə ərəfəsindəki gərginlik var. Ön planda dayanan qadının simasında bu duyğular daha aydın görünür. Bu, istedadlı rəssamın özünün surəti idi. Vəcihə Səmədova öz qəlbindəki təlatümləri təsvir edirdi. O rəsmi çəkəndə ağır xəstə olduğunu bilirdi. Taleyin ona bundan sonra neçə il ömür bəxş edəcəyini, xəstəlik diaqnozunun nə qədər ağır olduğunu bilmək üçün xəbər gözləyirdi. Yaratdığı kompozisiyada olduğu kimi, Vəcihə Səmədova da intizar içərisindəydi...**




O, "Xəbər gözləyərkən" adlı bu əsəri çəkəndə 1963-cü il idi. Və elə həmin il Bakıda keçirilən "Bizim müasirimiz" adlı sərgidə bir neçə əsəriylə bərabər uğurla nümayiş etdirildi. Bu, rəssamın son tablosu oldu...

### Rənglər aləminin əsrarı

Lap kiçik yaşlarından dünyaya öz duyğularından baxırdı Vəcihə Səmədova. Rənglərin fərqli, bənzərsiz çalarlarına valeh olurdu. 1924-cü ildə dünyaya göz açdığı, uşaqlıq çağlarından gözəlliklər məkanı saydığı İçərişəhərin əsrarəngiz mənzərələri, eşitdiyi musiqilər də onun pünhan duyğuları ilə həmahəng idi. Hisslərini, təəssüratlarını ifadə etmək istəyəndə fırçasını, rəngli qələmlərini əlinə alırdı.

Bəxti gətirmişdi. Onu duyan, arzularına qol-qanad verən ailənin övladıydı. Valideynləri musiqini, incəsənəti çox sevirdilər. Atası Kərbəlayi Əli əslən Qars azərbaycanlılarından idi. O, qardaşı ilə Qarsdan İrəvana getmiş, bir müddət orada yaşadıqdan sonra Bakıya köçmüşdülər.

Anası Rübabə xanım isə İranın Qum şəhərindən ailəsiylə birlikdə bu şəhərə gəlmişdi. Kərbəlayi Əli ilə Rübabə xanım bir-birilərini İçərişəhərdə tanımışdılar. Evlənmişdilər. Onların başqa övladları da oldu. Ancaq iki qızları - Vəcihə və Solmaz sağ qaldı. Kərbəlayi Əli şirniyyatçı, Rübabə xanım isə evdar qadın idi. Hər ikisi musiqini, incəsənəti çox sevirdi. Kərbəlayi Əlinin özünün də yaxşı tar çalmağı, məlahətli, həzin səsi vardı. Könlünə düşəndə Qars mahnılarını, türk-Kərkük mahnılarını yanıqlı-yanıqlı zümzümə edirdi. Bu mahnıları dinləyə-dinləyə böyüyən qızları lap kiçik yaşlarından musiqiyə, incəsənətə bağlandılar.

Kərbəlayi Əli balaca qızının rəsm çəkmək marağını görəndə fərəhlənir. Ona kağız, rəngli karandaşlar və məşhur rəssamların dünya muzeylərində saxlanılan əsərlərinin reproduksiyalarından ibarət kitablar alırdı. Ata-anası Vəcihənin 132 saylı orta məktəbin 7-ci sinfini bitirdikdən sonra Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə daxil olmasına da çox sevindilər. Onların mehriban, istiqanlı qızı yeni məktəbə də çox tez alışdı, tələbə yoldaşlarına qaynayıb-qarışdı, müəllimlərinin hörmətini qazandı. Vəcihənin rəssamlıq qabiliyyəti, rəng duyumu, işgüzarlığı, böyük həvəslə oxuyub öyrənməsi, sevdiyi sənətin sirlərinə dərindən yiyələnməyə səy göstərməsi diqqətdən yayınmadı. Vəcihə Səmədova mahir rəssam olacağına, uğurlu gələcəyinə hər kəsi inandırdı.

Məlahətli, xoşxasiyyət, utancaq, zərif gənc qızın gözəlliyi rəssamlıq məktəbinin müəllimlərindən Lətif Feyzullayevin diqqətini xüsusilə cəlb etmişdi. Vəcihə Səmədova isə o illərdə



təhsilini davam etdirmək, Moskvada, Surikov adına Rəssamlıq İnstitutunda oxumaq arzusunda idi. Lətif Feyzullayev 1939-cu ildə Moskvaya gedib, həmin instituta qəbul olmuşdu. İki il sonra, 1941-ci ildə Böyük Vətən müharibəsi başlamışdı. O zamanlar Moskva kimi yerdə təhsil alan azərbaycanlılar az olduğundan onlara bron verilmişdi. Lətif Feyzullayev də bron almışdı. O, müharibə illərində, Surikov adına Rəssamlıq İnstitutu Moskvadan Qazaxıstanın Alma-Ata (indiki Almatı) şəhərinə köçürüləndə təhsilini başa vurmadan Bakıya qayıtmışdı. Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində müəllim işləməyə başlamışdı. Vəcihə Səmədovanı da həmin vaxtlar görmüşdü.

Vəcihə Səmədova 1944-cü ildə təsilini başa vurdu. Ali təhsil almaq arzusunu reallaşdırmaq üçün Moskvaya getdi. Surikov adına Rəssamlıq İnstitutuna daxil oldu. Həmin il Lətif Feyzullayevlə ailə qurdu. İlk övladları - Nicat 1945-ci ildə dünyaya gəldi. İnstitutda təhsilinə bir il ara verən Vəcihə Səmədova oğlunun qayğısına qaldı. Lətif Feyzullayev isə dekabrda - institutda dərslərin başlanmasından iki ay sonra Moskvaya getdi. Gecikdiyi üçün təhsilini davam etdirməsində problem yarandı. O vaxt Moskvada olan dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin yanına getdi. Bəstəkar dərhal Rəssamlıq İnstitutunun rektoruna zəng vurdu. Lətif Feyzullayev instituta bərpa edildi.

Vəcihə Səmədova oğlunun bir yaşı tamam olandan sonra Moskvaya qayıtdı. O da həyat yoldaşı kimi Surikov adına Rəssamlıq İnstitutunda təsilini davam etdirdi. Birlikdə bütün çətinliklərin öhdəsindən gələ-gələ oxudular. Lətif Feyzullayev institutu 1949-cu ildə bitirdi. Bakıya döndü. Vəcihə Səmədova isə



təhsilini tamamlamaq üçün Moskada qaldı. O, institutda məşhur rəssamlar Yakovlevdən, Korindən yalnız rəssamlıq sənətini deyil, həm də yaxşı pedaqoq olmağı öyrəndi.

1951-ci ildə "Üzeyir Hacıbəyov Azərbaycan bəstəkarlarının arasında" mövzusunda diplom işi hazırladı. Əsəri müəllimləri tərəfindən yüksək qiymətləndirildi. Vəcihə Səmədova müəllimi Pavel Korinin təkidi ilə aspiranturaya daxil oldu. Üç il sonra, aspiranturanı bitirəndə isə Surikov adına Rəssamlıq İnstitutunda qalıb dərs demək təklifini aldı. Artıq doğmalarından ayrı qalmaq istəmirdi. Ailəsinin, yeddi yaşına çatmış oğlunun yanına, Bakıya qayıtdı. Vəcihə Səmədova rəssamlıqla bərabər, pedaqoji fəaliyyətlə də məşğul olmağa başladı. Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində dərs dedi.

### Azərbaycanın ilk peşəkar qadın rəngkarı

Onun rəssamlıq fəaliyyətində ən məhsuldar illəri 1957-1963-cü illər oldu. Vəcihə Səmədova "İmtahan ərəfəsində", "Lənkəranda toy", "Toya hazırıq", "Mahnı" kimi böyük maraqla qarşılanan əsərlər yaratdı. 1962-ci ildə Bolqarıstana yaradıcılıq ezamiyyətinə getdi. Həmin səfərin təəssüratları Bolqarıstan silsiləsindən olan "Qoca bolqar qadınları", "Sofiyada bazar", "Yağışlı gün", "Qayalar üzərində evlər" və digər əsərlərində əksini tapdı, rəssamın fərdi sərgisində onlar uğurla nümayiş etdirildi.

Vəcihə Səmədova bir sıra əsərlərini doğmalarına həsr etdi. Onunla hər zaman qürur duyan, fəxr edən anasının portretini çəkdi. "Bacımın portreti", "Memar Solmaz Səmədova", "İmtahan ərəfəsində" və digər əsərlərini sevimli bacısı Solmaza, "Qızımın portreti", "Balaca Fatimə", "Tələbə", "Balaca skripkaçı" əsərlərini isə övladlarına həsr etdi.

Sənətinə olan vurğunluğunu, istedadını, zəhmətsevərliyini görürdülər. Əsərlərinin dəyərini də yaxşı bilirdilər. Bununla belə ona maneələr yaradır, haqsızlıq edirdilər. 1953-cü ildə "Leyla Bədirbəylinin portreti"ni çəkərkən də eyni münasibətlə qarşılaşdı. Bu əsəri ərsəyə gətirmək üçün Vəcihə Səmədova dəfələrlə aktrisa Leyla Bədirbəylinin evinə getdi, onlarca eskiz hazırladı. O vaxtlar Vəcihə Səmədovanı elə həddə çatdırdılar ki, rəssamların rəngi qaşımaq üçün istifadə etdikləri mastexin adlanan iti alətlə həmin şəkli üç dəfə cırdı. Rəssamlardan biri demişdi ki, bu səviyyəsiz əsərdir. Vəcihə Səmədovaya ən çox bu təsir edən o idi ki, həmin rəssam bu əsərin dəyərini çox gözəl bilirdi. Və zaman "Leyla Bədirbəylinin portreti"nin əsl qiymətini verdi. Əsər Azərbaycan rəngkarlığının 100 ən gözəl nümunəsinə daxil edildi. İncəsənət Muzeyində nümayiş olundu.

O, haqsızlıqlarla üzləşəndə ən çox özünü üzürdü. Amma yenə özündə güc tapır, maneələri, çətinlikləri aşır, sənət yoluna davam edirdi. Ən çətin günlərində də, uğurlar qazananda da təsəllisi, sevinci ailəsi idi. Hər zaman yanında olan, onu düşünən, haqsızlıqlardan qorumağa çalışan həyat yoldaşı Lətif Feyzullayev Vəcihə Səmədovanın həm də həmkarı, sənətdə ən yaxın dostu, məsləhətçisi idi. Onlar bir-birilərinin yaradıcılıqlarına tənqidi yanaşırdılar.

Bu iki rəssamın evi əsl sənət ocağına çavrilmişdi. Sənət dostları - Tahir Salahov, Mikayıl Abdullayev, Ömər Eldarov, Əlibəy Rzaquluyev, Tokay Məmmədov və başqaları tez-tez onların evinə toplaşırdılar.

Moskvada təhsillərini başa vurub Bakıya qayıtdıqdan sonra da bu ailənin maddi çətinlikləri davam edirdi. Evləri olmadığından bir müddət İçərişəhərdə, Vəcihə Səmədovanın ata evində qaldılar. 1958-ci ildə "Rəssamların binası" adlanan bina tikilib istifadəyə veriləndə onlar da mənzil aldılar. Emalatxanaları da həmin binada idi. İkisinə bir emalatxana verildiyindən vaxtı bölməli olurdular. Nəhayət, 1962-ci ildə Vəcihə Səmədovaya ayrıca emalatxana verildi. Artıq rahat çalışa biləyəcəyini, planını qurduğu işləri həyata keçirəcəyini, fikirlərini məşğul edən mövzuları yeni əsərlərə çevirəcəyini düşünürdü. Ancaq çarəsiz xəstəlik imkan vermədi. Doğmaları da onunla bərabər amansız xəstəliklə mübarizə aparmağa çalışdılar. Müalicə üçün getdiyi Bakının, Moskvanın xəstəxanalarında dərdinə əlac tapılmadı. Vəcihə Səmədova 1965-ci ildə, qırx bir yaşının tamamına bir ay qalmış dünyadan köçdü. Azərbaycan KP Mərkəzi Komitəsi respublikanın ilk peşəkar qadın rəngkarı, Əməkdar incəsənət xadimi Vəcihə Səmədovaya Fəxri xiyabanda yer ayırdı. Ancaq Lətif Feyzullayev həyat yoldaşının vəsiyyətini yerinə yetirdi. Vəcihə Səmədova ümumi müsəlman qəbiristanlığında dəfn edildi.

Vəcihə Səmədovanın adı vəfatından çox keçməmiş əbədiləşdirildi. Azərbaycan Rəssamlar İttifaqının sərgi salonuna onun adı verildi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Məhəmməd Füzulinin 530 illiyi münasibətilə elektron məlumat bazası hazırlanıb

Prezident İlham Əliyevin dahi şair Məhəmməd Füzulinin 530 illik yubileyi ilə əlaqədar imzaladığı sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək məqsədilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında şairin həyat və yaradıcılığı, zəngin bədii irsi haqqında elektron məlumat bazası hazırlanıb.




Kitabxananın rəsmi saytında yerləşdirilən bazada Ümummilli Liderin Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqinin, pedaqogika elmləri doktoru, professor Kamal Camalovun "Məhəmməd Füzuli humanizmi və ideya saflığı" məqaləsinin tam mətni ilə yanaşı, "Ulu Öndər Heydər Əliyev və Məhəmməd Füzuli", "Görkəmli şəxslər Məhəmməd Füzuli haqqında", "Məhəmməd Füzuli bədii ədəbiyyatda" kimi bölmələr də mövcuddur.

Elektron bazada dahi şairin Azərbaycan, türk, ingilis və rus dillərində nəşr edilən, dövrü mətbuatda çıxan əsərləri, haqqında yazılan, məcmuələrdə və ayrı-ayrı kitablarda çap edilən məqalələri, sözlərinə yazılan musiqi əsərləri, görkəmli mütəfəkkirə həsr edilən dissertasiya və avtoreferatlar, elektron resurslar təqdim edilir. Kitabxana əməkdaşları tərəfindən hazırlanan bazada Məhəmməd Füzulinin xatirəsinin əbədiləşdirilməsi haqda məlumatlar, kitablarının virtual sərgisi, filmoqrafiyası, foto, videoqalereyası da sərgilənir.

# "İRS" silsiləsindən yeni nəşrlərin təqdimatı olub



Dekabrın 24-də Bakıda "İRS" silsiləsi çərçivəsində 2024-cü ildə nəşr edilən kitabların təqdimat mərasimi keçirilib.

Əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib.

"İRS" Nəşriyyat evinin baş redaktoru Musa Mərcanlı bildirib ki, bu gün hamımız mədəni irsimizin, mədəniyyətimizin, incəsənətimizin işığına toplaşmışıq. O, bu il nəşriyyat evi tərəfindən müxtəlif dillərdə çap olunmuş kitablar haqqında məlumat verib. Vurğulayıb ki, nəfis tərtibatı və yüksək bədii-estetik görünüşü ilə diqqəti cəlb edən nəşrlərdə Azərbaycanın tarixi, mədəniyyəti, milli irsi dünyaya müxtəlif dillərdə təqdim olunur. Artıq 13 ildir kitab nəşri ilə məşğul olduqlarını bildirən M.Mərcanlı bu il işıq üzü görən beş kitab - "Qarabağ yeni sətirdən", "COP29: Yaşıl ümid rəngidir", "Şirvanşahların birinci yılı", "Şuşa" və "Kralın Kitabı" haqqında məlumat verib. Bildirib ki, birinci kitab məhz Qarabağın dirçəlişi ilə bağlıdır. Kitabda doğma, əziz Qarabağda aparılan tikinti, quruculuq, bərpa işləri, insanların qayıdışı barədə məlumatlar öz əksini tapıb.

"Ümumilikdə Qarabağla bağlı 10-a yaxın kitab nəşr etmişik. Qarabağın mədəniyyəti, tarixi, incəsənəti o qədər zəngindir ki, onlar haqqında yazmaq, gələcək nəsillərə çatdırmaq olduqca vacibdir. Bizim bu gün nəşr etdiyimiz kitabların siyahısında miniatür əsərləri də qeyd etmək istəyirəm. Bu da sözügedən istiqamətdəki silsilə kitabların ikincisidir. Bundan əlavə, COP29 zamanı buraxdığımız kitab yeddi dildə nəşr olunub".

Baş redaktor diqqətə çatdırıb ki, "İrs" jurnalı artıq 25 ildir işıq üzü görür və 20 dildə dünyaya yayımlanır. Jurnal ölkəmizin mədəniyyətini, tarixini, coğrafiyasını Azərbaycanın hüdudlarından kənarda tanıtmaq, orada yaşayan çoxsaylı soydaşımızı yenidən öz köklərinə qaytarmaq məqsədilə nəşr olunur. Bu dərgi Azərbaycanın mədəniyyəti, tarixi, etnoqrafiyası, xüsusilə də, ən əsası, Qarabağ məsələsi, erməni təcavüzü ilə bağlı əsl həqiqətləri işıqlandırmağı və xarici ölkələrə yaymağı qarşıya məqsəd qoyub. Jurnalımızın bir özəlliyi də hər kəslə məhz doğma dilində "dil tapması"dır. "İrs"in materialları əsasında kitablar da buraxılır. "İrs" seriyası ilə ildə 2-3 kitab işıq üzü görür. Bu il isə bu seriyadan beş kitab hazırlanıb. Bunlar bir növ ensiklopedik nəşrlərdir. Burada "İrs" jurnallarında çap edilmiş materialların daha geniş işlənmiş, əhatəli tədqiqatı yer alır. Bu ensiklopedik "İrs" kitabları Azərbaycanın xaricdə tanıdılması istiqamətində yeni səhifə açıb.

Eldar Rəsulovun moderatorluğu ilə davam edən tədbirdə "Paşa Həyat Sığorta" ASC-nin İdarə Heyətinin sədri Niyaz İsmayılov, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov, mədəniyyət nazirinin müavini Fərid Cəfərov və başqaları çıxış edərək "İRS" Nəşriyyat Evinin mədəniyyətimizin dünyada tanıdılması istiqamətində gördüyü işləri yüksək qiymətləndiriblər.

Bildirilib ki, "Qarabağ yeni sətirdən" kitabında da vurğulandığı kimi, hazırda Qarabağda böyük bərpa-quruculuq işləri həyata keçirilir. Bu gün tariximizin ən şərəfli günlərini yaşayırıq. Artıq 30 illik həsrətdən sonra torpaqlarımız, Qarabağımız, mədəniyyətimizin beşiyi Şuşa azaddır. Bütün dünyaya bəyan edirik ki, bu torpaqların əsl sahibləri bizik. Hazırda burada mədəniyyətimizi, ruhumuzu, milli kimliyimizi qaytarmaq istiqamətində böyük işlər görülür, oralar canlanır. Bu kitablar vasitəsilə dünya Ermənistanın işğal dövründəki qeyri-qanuni əməllərindən, cinayətlərindən xəbərdar olacaq.

Vurğulanıb ki, "İRS" seriyasından nəşr olunan kitablar Azərbaycanın tarixi-mədəni zənginliyini müxtəlif dillərdə oxuculara çatdırır. Natiqlər yeni nəşrlərin ərsəyə gəlməsində əməyi keçən yaradıcı heyətə uğurlar arzulayıblar.

Tədbir ədəbi-bədii kompozisiya ilə davam edib.

# "Aktyor sənətini öyrən" layihəsi davam edir

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət Elmi-Metodiki və İxtisas Mərkəzi (MEMİM) və Azərbaycan Rəssamlıq Məktəbinin "Aktyor sənətini öyrən" layihəsi davam edir. Təlimin ilk üç ayının nəticələrinə əsasən layihə çərçivəsində imtahanlar təşkil olunub.



Noyabrın 30-da ilk imtahan musiqili tamaşalar olub: Əməkdar artist Qurban Məsimovun TKA 05/24 (Teatr və Kino) kiçik qrupunun quruluşunda "Mama" və Əməkdar artist Qasım Nağının rəhbərliyi ilə TKA 03/24 kiçik qrupun quruluşunda "Gülüncün nağılı". İmtahanlar uğurla keçib, tamaşaçılar gənc istedadların çıxışlarını mehribanlıqla qarşılayıblar.

Dekabrın 11-də Azərbaycan Rəssamlıq Məktəbinin TKA 07/24 saylı yuxarı yaş qrupu üzrə "Etüdlər" imtahanı keçib. Kursun rəhbəri Xalq artisti Məmmədsəfa Qasımovdur.

Nağılların müəllifi Gülzar İbrahimova, teatrşünas Dağlar Yusif, respublikanın Əməkdar artisti Elman Rəfiyev, Xalq artisti Cəfər Namiq Kamal və başqaları tamaşalarla bağlı fikirlərini bildiriblər. Onlar layihənin əhəmiyyətini və tələbələrin çıxışını yüksək qiymətləndirib, tədris proqramının qısa müddətdə uğurla mənimsənildiyini vurğulayıblar.

"Aktyor sənətini öyrən" layihəsinin əsas məqsədi uşaq və yeniyetmələr arasında peşəkar teatr sənətinin populyarlaşdırılması, müstəqil incəsənət təhsili sahəsinin peşəkarlaşdırılması, bu istiqamətdə konseptual yeniliklərdən səmərəli istifadə etməkdir.

# Bəstəkarlar İttifaqının 90 illik yubileyi silsiləsindən yeni kitablar işıq üzü görüb

**Azərbaycan Bəstəkarlar İttifaqının 90 illik yubileyi ilə əlaqədar nəşrlər silsiləsindən yeni kitablar işıq üzü görüb.**

İttifaqdan bildirilib ki, kitabda Vətən müharibəsində Zəfər münasibətilə bəstəkarların qələmə aldığı xor və simfonik əsərlərin partiturası nəşr olunub. İlk dəfədir ki, Bəstəkarlar İttifaqı tərəfindən əsərlərin partiturası çap edilir. Onu da qeyd edək ki, bu, "Şanlı Zəfərə həsr olunan Azərbaycan bəstəkarlarının xor və simfonik orkestr üçün əsərləri" adlı partituraya Firəngiz Əlizadənin "Zəfər marşı" (söz: müəllif), Cəlal Abasovun "Şanlı Azərbaycan" (söz: Məhəmmədhüseyn Şəhriyar), Məmməd Cəfərovun "Nər oğlum!" (söz: Nəsibə İsrafilqızı), Rəna Qədimovanın




"Azərbaycanım" (söz: Yusif Nəğməkar), Sərdar Fərəcovun "Azad Şuşa!" (söz: müəllif) əsərləri daxildir.

Növbəti kitab isə musiqişünas mərhum L.Karagiçevanın "Frangiz Alızade. Naçalo puti" kitabıdır. Rus dilində işıq üzü görən bu nəşrin elmi redaktoru giriş və "Son söz"ün müəllifi sənətşünaslıq üzrə fəlsəfə doktoru Natalya Dadaşovadır.

# Gəncə və Şəmkirin 3 sakini qəzaya uğramış təyyarədə olmuşdur

## Onlardan ikisi sağ qalmışdır



**Xəbər verildiyi kimi, dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus "Embraer 190" təyyarəsi təcili eniş zərurəti ilə bağlı Aktau şəhəri istiqamətinə yön alarkən həmin şəhərin yaxınlığında qəzaya uğramışdır. Təyyarənin göyərtəsində 62 sərnişin, 5 ekipaj üzvü olmaqla ümumilikdə 67 nəfər olmuşdur.**

Baş vermiş qəza ilə əlaqədar Prezident İlham Əliyevin tapşırığına əsasən, hadisənin səbəblərinin araşdırılması üçün Baş nazir Əli Əsədovun sədrliyi ilə Dövlət Komissiyası yaradılmışdır. Dövlət başçısının tapşırığı ilə fövqəladə hallar və rəqəmsal inkişaf və nəqliyyat nazirlərinin rəhbərlik etdikləri heyət Qazaxıstana yola düşmüşdür. Nazirlər hadisə yerində müşahidə aparmış, xəstəxanada yaralılarla görüşmüşlər. Bundan başqa, hadisə baş verdiyi andan Azərbaycanın Aktau şəhərindəki Baş Konsulluğu hadisə yerində fəaliyyətə başlamış, Qazaxıstan tərəfi ilə əlaqəli şəkildə işbirliyi quraraq operativ tədbirlər görməyə başlamışdır.

Qəzada xəsarət alanlardan biri də Gəncə sakini Toğrul Cəfərovdur. Toğrulun atası Mahir Cəfərov deyir ki, qəzadan sonra oğlu ailəsi ilə əlaqə saxlayaraq vəziyyətinin yaxşı olduğunu bildirib. 32 yaşlı Toğrul hadisədən sonra Aktau xəstəxanalarından birinə yerləşdirilib. Atasının sözlərinə görə, o, hadisə barədə 11 radələrində eşidib: "Həmin an oğlumla əlaqə yaratdım. O, vəziyyətinin stabil olduğunu və elə bir xəsarət almadığını söylədi. Bir müddətdən sonra evə gəlib əl telefonu ilə yenidən oğlumu görüntülü yığdım. Danışıq zamanı həkimlərin ona yüksək səviyyədə tibbi xidmət göstərdiklərini dedi. Bundan başqa, Aktau vətəndaşlarının xəstəxanaya gələrək yaralılara qan verdiklərini söylədi".

Xəsarət alanlar arasında Şəmkir rayonunun Sarıtəpə kənd sakini, 1998-ci il təvəllüdlü Zamin Alıyev də var. Anası Güllü Alıyeva oğlu barədə bunları bildirdi: "Oğlum Qroznıya işləməyə gedirdi. Bakı Hava Limanına çatanda evə zəng etdi ki, nigaran qalmayın. Bir neçə saata təyyarə yola düşəcək. Bundan sonra oğlumla əlaqə saxlaya bilmədim. Bir də eşitdim ki, təyyarə qəzaya uğrayıb. Elə bil dünya başıma uçdu. Sonra öyrəndim ki, qəzada oğlum elə bir xəsarət almayıb. Sevincimin həddi-hüdudu yox idi. Lakin qəza zamanı çoxlu sayda yaralının, eləcə də həlak olanların olduğunu eşidəndə qanım bərk qaraldı. Allah qəzada həlak olanlara rəhmət eləsin, yaralılara isə cansağlığı arzulayıram".

Dekabrın 25-də qəzaya uğrayan təyyarənin sərnişinlərindən biri də Şəmkir rayonunun Yuxarı Seyfəli kənd sakini, 1998-ci il təvəllüdlü Ramin İbrahimovdur. Atası Mahir İbrahimov deyir ki, oğlu Çeçenistana işləməyə gedirmiş: "Saat 8-də bizə mesaj göndərdi ki, gömrükdən keçmişəm, artıq yola düşmək ərəfəsindəyik. Bir neçə saatdan sonra eşitdik ki, təyyarə qəzaya düşüb və çoxsaylı həlak olanlar və yaralananlar var. Oğlum Ramin həlak olanlar arasında idi".

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN
№ 287 (9742) 27 dekabr 2024-cü il CÜMƏ — AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI — QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Prezidentin Mətbuat xidmətinin məlumatı
Proseslər Prezidentin nəzarətindədir
Dövət aviaqəzanın nəticələrinin aradan qaldırılması üçün genişmiqyaslı fəaliyyət həyata keçirir
Dünya liderləri təyyarə qəzası ilə əlaqədar İlham Əliyevə başsağlığı veriblər
Sükut dəqiqəsi
Cinayət işinin istintaqı ilə bağlı müxtəlif versiyalar irəli sürülür
Qəza ilə bağlı vacib olan bütün tədbirlər həyata keçirilir
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Niyə bəzi insanlar daha çox xəstələnirlər?

**Qışın özü ilə bərabər gətirdiyi qayğılardan biri də səhhətdə yaranan problemlərdir. Soyuq havaların gəlişi ilə insanların bəziləri daha tez xəstələnir, kəskin respirator virus infeksiyalarına yoluxur, xroniki xəstəliklər kəskinləşir. İnsan orqanizmi təxminən 70 trilyon hüceyrədən ibarətdir. Səhhətimiz, fiziki və zehni fəaliyyətimiz bu mikrocanlılardan asılıdır. Əgər onlar sağlamdırsa, bədənimiz də sağlam və gümrah olur. Yox, belə deyilsə, bu və ya digər orqanımız öz funksiyasını düzgün yerinə yetirə bilmir, nəticədə xəstələnir.**



Maraqlısı odur ki, bir qisim insan, ümumiyyətlə, viruslara yoluxmur, yoluxsa belə, orqanizmi tez bərpa olur, sanki gözəgörünməz bir qalxanla xəstəliklərdən qorunur. ABŞ-nin Yale Universitetinin alimlərinin apardığı tədqiqatların nəticələrinə görə, bunun səbəbi genetika, qeyri-sağlam həyat tərzi və israrla təkrar etdiyimiz səhvlərdir.

Bəzi insanların qrip, koronavirus, soyuqdəymə, tonzillit, faringit, sinüsit və sətəlcəm kimi bakterial infeksiyalara yoluxma şansının daha az olmasının əsas səbəbi genetik meyildir. Bu insanların antimikrob toxunulmazlığı digərlərindən daha zəifdir. Lakin unutmamalıyıq ki, genetik faktorlar dəyişməz taleyimiz deyil. Genlər səssiz, hərəkətsizdir. Ta ki, aktivləşdirmək üçün siqnal alana qədər. Xəstəliklə əlaqəli bir genin olması mütləq həmin xəstəliyə yaxalanacağımız demək deyil. Xəstəlik genlərini aktivləşdirəcək mənfi amillər azaldılsa, xəstəliyin yaranmasının da qarşısı alına bilər.

Stresin orqanizmə vurduğu zərər düşündüyümüzdən daha çoxdur. Araşdırmalar göstərib ki, bu faktor sağlamlıqda mühüm rol oynayır. Belə ki, kəskin və ya xroniki olmasından asılı olmayaraq, bütün növ streslər immun reaksiyalarını sıxışdırır, gözlənilməz infeksiyalara səbəb olur. Stres səviyyəsi artdıqca hüceyrələrin soyuq viruslara qarşı müdafiə mexanizmləri zəifləyir.

Orqanizm özünə zərər verən amilləri təmizləmək üçün immunitet sistemindən istifadə edir. Lakin insanı xəstəliklərdən qoruyan bu sistem hər kəsdə eyni gücdə olmur. İmmunitet sisteminin individual olaraq qaldıra biləcəyi "yük" var. İnfeksiyanın yüksək olduğu mühitdə, qısa müddət də olsa, müdafiəsiz qalsaq, qəbul edilən həddindən artıq mikrob "yük"ü səbəbindən, immunitetin vəziyyətindən asılı olmayaraq, mikroblara qarşı mübarizəni itirəcəyik. Yaşlılıq immunitetin dayanıqlılığını azaldan əsas amillərdəndir. Yaşlı insanların gənclərə nisbətən daha tez və asanlıqla xəstələnməsinin, mikrob xəstəlikləri ilə daha ağır şəkildə qarşılaşmasının səbəbi təbii immunitetdə elastikliyin və gücün itirilməsidir.

Bəzi insanların viruslara qarşı müqavimətsiz olmasının digər səbəbi pis qidalanmadır. Zərərli və balanssız qidalanma nəticəsində son 10-15 ildə piylənmə halları, demək olar ki, üç dəfə artıb. Hər dörd insandan birində qaraciyər yağlanması, insulin müqaviməti və ürək-damar xəstəlikləri müşahidə edilir. Qidaları uzun müddət saxlamaq üçün əlavə edilən konservantlar orqanizm üçün zərərlidir, Onların "toxunduğu" zülal, yağ və şəkərlərin də keyfiyyəti aşağı düşür. Bunlar da bədən tərəfindən yad maddələr kimi qəbul edilir. Yediyimiz qidalar həzm sistemimiz tərəfindən ən kiçik hissələrə, zülallar amin turşularına, şəkərlər qlükoza, meyvə və tərəvəzlər fruktozaya, vitaminlər minerallara, yağlar yağ turşularına parçalanır və bağırsaqdan sorulur. Proses pozulduqda bağırsaq florası zədələnir, xəstəliklər yaranır.

Zülal və vitamin gücünün olmaması orqanizm üçün əhəmiyyətli bir determinantdır. Bunun üçün mütəxəssislərin nəzarəti altında Omega 3, D3, K2, C vitaminlərini, sink, dəmir minerallarını, probiotik birləşmələri mütəmadi olaraq qəbul etmək lazımdır.

Qida rasionuna əlavə olunmalı əsas tərəvəzlərdən biri nitratlarla bol çuğundurdur. Pazı, ispanaq, kələm, kahı və reyhan da güclü nitrat mənbəyidir. Bədənə daxil olan nitrat damarların daxili səthini əhatə edən qoruyucu endotel örtüyündə bol azot oksidi istehsalına səbəb olur. Azot oksidinin artması qan təzyiqini tarazlaşdırmağa, damarları genişləndirməyə və toxumalara daha çox oksigen və qida çatdırmağa kömək edir. Un və şəkər məmulatlarını isə, ümumiyyətlə, qida rasionundan çıxartmaq lazımdır. Balanslı və düzgün qidalanma, fiziki məşqlər və keyfiyyətli yuxu ən vacib immun gücləndiricilərdir. Nizamlı yuxu immunitet sistemi üçün dərman kimidir.

Sağlam olmaq istəyən hər kəs tütün məmulatlarından uzaq durmalıdır. Tədqiqatçılar hüceyrələrin zəifləməsinin səbəblərini daha dərindən araşdırmaq üçün burun hüceyrələrini nikotinə məruz qoyublar. Məlum olub ki, nikotinə məruzqalma hüceyrələri daha həssas edir. Bədənimiz bir infeksiya ilə qarşılaşdıqda immunitet sisteminin hüceyrələri aktivləşir, immun cavabını və iltihabi prosesləri əlaqələndirən aşağı molekulyar çəki zülalları istehsal etməyə başlayır. Lakin tütün məmulatları bu prosesi ciddi şəkildə pozur.

İnsan immunitetini zəiflədən əsas amillərdən biri də gigiyenaya riayət etməməkdir. Bu, bəzən fərdin özündən deyil, ətraf mühitdən də asılı olur. Ümumiyyətlə, gigiyena şəraitinin pis olması, təmizlik qaydalarına diqqət yetirilməməsi, lazımi qoruyucu tədbirlərin görülməməsi, bir sözlə, gigiyenik tədbirlərdən uzaqlaşmaq insanı viruslara qarşı müdafiəsiz edir.

Nəticə etibarilə bu qənaətə gəlmək olar ki, immunitetimiz zəifdirsə, soyuqlar düşən kimi virus infeksiyalarına yaxalanırıqsa, bunu təkcə genetik faktorla əlaqələndirə bilmərik. Daha az xəstələnmək, xəstələnəndə isə tez və asan sağalmaq ilk növbədə öz əlimizdədir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Ölkə ərazisində yağmurlu hava şəraiti gözlənilir

**Dekabrın 28-də Azərbaycan ərazisində gözlənilən hava proqnozu açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, Bakıda və Abşeron yarımadasının bəzi yerlərində fasilələrlə yağış yağacağı gözlənilir. Şimal-şərq küləyi günün ikinci yarısında mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 5-8°, gündüz 8-10° isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 762 millimetr civə sütununa enəcək. Nisbi rütubət 80-90 faiz təşkil edəcək.**



Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-8° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı təxmin edilir.

Xankəndi şəhəri, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-7° isti olacağı proqnoz edilib.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-3° isti, dağlıq ərazilərdə 5°-dək şaxta, gündüz 3-7° isti olacağı güman edilir.

Gəncə və Naftalan şəhərləri, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-4°, gündüz 4-8° isti olacağı proqnoz edilib.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 4-8° isti, dağlarda gecə 3-8°, gündüz isə 0-3° şaxta olacaq.

Mingəçevir və Şirvan şəhərləri, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Arabir duman olacaq, qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 6-10° isti olacağı proqnoz edilib.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq, şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-6°, gündüz 6-10° isti, dağlarda gecə 0-3°, gündüz 3-6° isti olacağı təxmin edilir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov və konfederasiyanın kollektivi AHİK-in Aparat rəhbərinin müavini Hikmət Nəbiyevə əzizi

**HÜSEYN İSKƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının kollektivi akademiyanın əməkdaşı Azad Hüseynova

**ANASININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4233**
**Sifariş 2981**

**Qiyməti 60 qəpik**